

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 46 (24.428)
17 noyabr 2024-cü il, bazar

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# "Dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!"




***Azərbaycan siyasəti, diplomatiyası bu günlərdə ən böyük tarixi uğurlarından, nailiyyətlərindən birini yaşayır. Dünyanın 200-ə yaxın ölkəsinin yekdil qərarı əsasında paytaxt Bakı şəhəri ən nəhəng ictimai-siyasi platformalardan sayılan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) müvəffəqiyyətlə ev sahibliyi edir. Konfrans yüksək səviyyədə təşkili, dünya dövlət başçılarının etimadı, rəğbəti, yeni əməkdaşlıqların qurulması ilə bir ilə yaxındır, ölkəmizə qarşı qarayaxma kampaniyası aparan, müxtəlif dezinformasiyalarla beynəlxalq sessiyaya kölgə salmağa çalışanlara ən tutarlı, sanballı cavabları ünvanlamaqdadır. Noyabrın 12-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimində çıxışı zamanı Prezident İlham Əliyev dövlətimizin uğurla reallaşdırdığı "yaşıl enerji" siyasətindən, yaşıl gündəlikdən söhbət açdı, Qərbin çirkin siyasi oyun aparanlarına mühüm siyasi mesajlar verdi...***

Səhifə ⇨ 3

## Naxçıvan mənim həyatımda böyük rol oynadı

***Ümummilli Lider Heydər Əliyevin "Azerbaijan International" jurnalına müsahibəsi – 1994-cü il***

*"Azerbaijan International" jurnalının baş redaktoru Betti Bleyerin 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevdən aldığı müsahibə həmin jurnalın 1994-cü ilin (2.2) sayında ingilis dilində oxuculara təqdim edilmişdi. Müsahibənin aktuallığı nəzərə alınaraq ilk dəfə ingiliscədən Azərbaycan dilinə tərcümə olunmuş bu müsahibəni təqdim edirik:*

**Betti Bleyer:** – Mümkünsə, sizin şəxsi həyatınızın bəzi tərəfləri ilə maraqlanmaq istəyirəm. Mən dövlətlə heç bir əlaqəsi olmayan, siyasi və iqtisadi məsələlərdən bəhs etməyən bir neçə sual soruşmaq istərdim.

**Heydər Əliyev:** – Əlbəttə, buyurun!

**Betti Bleyer:** – İş həyatınızın çox hissəsini Rusiyada keçiribsiniz, əksəriyyət – hamı sizin rus dilində son dərəcə yaxşı danışdığınızı düşünür. Bununla yanaşı, azərbaycanlıların əksəriyyəti sizin Azərbaycan dilində danışıq qabiliyyətinizlə onları necə heyrətləndirdiyinizi mənə deyiblər. Sizin dilləri belə daha tez öyrənmək üçün təcrübələriniz hansılardır?

**Heydər Əliyev:** – Azərbaycan dili mənim doğma dilimdir. Naxçıvanda orta məktəb illərində rus dilini öyrəndim. O zaman rus dilini cəmi bir neçə nəfər bilirdi. On altı yaşımda Bakıya gəldim və memar olmaq istədim. Lakin universitetə gedəndə mənə dedilər ki, bütün mühazirələr rus dilində olacaq. Sonralar Moskvada və Sankt-Peterburqda təhsil aldım. Həyatımın qalan hissəsi rus dili ilə əlaqəli olmuşdur. Mənim həyat yoldaşım da rusca təhsil almışdı və biz evdə birlikdə rus dilində danışırdıq.

**Betti Bleyer:** – Bəs Azərbaycan dili haqqında nə deyə bilərsiniz?

**Heydər Əliyev:** – Xoşbəxtlikdən gəncliyimdə Azərbaycan ədəbi dilini öyrəndim. Azərbaycanca danışan kimsənin olmadığı Moskvada on il yaşamağıma baxmayaraq, Azərbaycan dilini heç vaxt unutmamışam. Mən Azərbaycan dilini heç vaxt unutmadım. Burada – Azərbaycana 14 il rəhbərlik etdim, məhz buna görə də bəzən rusca fikirləşirəm və Azərbaycanca danışıram. Başqa vaxtlarda bu əksinə olur, mən Azərbaycanca fikirləşirəm, lakin rus dilində danışıram.

Səhifə ⇨ 2

## Azərbaycan beynəlxalq tədbirlərin mükəmməl təşkilatçılıq modelini yaradıb

COP29
Baku
Azerbaijan




Səhifə ⇨ 6-7



# Naxçıvan mənim həyatımda böyük rol oynadı

*Ümummilli Lider Heydər Əliyevin "Azerbaijan International" jurnalına müsahibəsi – 1994-cü il*

(əvvəli 1-ci səhifədə)

**Betti Bleyer:** – 1993-cü ilin 2 oktyabrında Prezident seçkisi qabağı nitqinizi beynəlxalq müşahidəçilərə siz özünüz Azərbaycan və rus dilində tərcümə etdiniz. Hər ikisinin, Azərbaycan və rus dilinin ingiliscə tərcüməsi ideyaların ardıcıllığı və şərhi də daxil olmaqla bir-birinə son dərəcə çox yaxın idi.

**Heydər Əliyev:** – Çıxışımın əvvəlində başa düşdüm ki, rus tərcüməçisi yaxşı tərcümə etmir, beləliklə, mən özüm tərcümə etməyə qərar verdim. Siz gördünüz ki, mən iki saat – bir saat Azərbaycan və bir saat rus dilində fasilə vermədən danışdım. Mən heç bir qeyddən istifadə etmədim və fikrimin ardıcıllığını itirmədim. Bu mənim üçün o qədər qeyri-adi deyildir. Oğlum mənə dedi ki, çox az adam bunu edə bilər. Bu onun fikridir.

Və siz haqlısınız, kifayət qədər çox azərbaycanlı Azərbaycan dilində yaxşı danışmır. Çoxları ədəbi dildən necə istifadə etməyi bilmir, onlar çox sadə – pis tələffüzlə və düzgün olmayan ifadəylə danışırlar.

Mən Moskvada yaşayanda ruslar deyərdi: "Heydər Əliyev rus dilini ruslardan daha yaxşı danışır!" Mən Kremldə və televiziyada nitq söyləyirdim. Hər yerdə insanlar çıxışlarımı televiziyadan izləyirdi. Hətta 1983-cü ildə "Taym maqazin" (Time Magazine) şəklimi də verməklə mənim haqqımda bir məqalə dərc etdi. Məqalədə yazılmışdı: "Heydər Əliyev müsəlmandır, ancaq o, Rusiyada rusların çoxundan rus dilində daha yaxşı danışır".

**Betti Bleyer:** – Mən bilirəm ki, Azərbaycan dilinin burada, Azərbaycanda ana dili kimi yaşadılmasında sizin, həqiqətən, xidmətiniz olub.

**Heydər Əliyev:** – Bəli, 1978-ci ildə Azərbaycan yeni Konstitusiya qəbul etdi. Konstitusiyada Azərbaycan dili haqqında mühüm bir maddə var – Azərbaycanın rəsmi dövlət dili Azərbaycan dilidir. Mən yazılmış Konstitusiyanın qəbul edilməsinə cavabdeh idim. Başqa respublikalarda bu kimi hal mövcud deyildir. Ukraynanı götürün, məsələn, o vaxt belə bir maddəni yazmaq asan deyildi, ancaq mən buna nail oldum.

**Betti Bleyer:** – Prezident seçkilərində mən müşahidəçi kimi Naxçıvana getdim. Siz Naxçıvanda böyümüsünüz. Mən bilmək istəyirəm ki, Naxçıvan sizin inkişafınıza hansı töhfələr verib və sizin bir şəxsiyyət kimi formalaşmağınıza necə təsir göstərib?

**Heydər Əliyev:** – Naxçıvanın mənim həyatıma böyük təsiri olmuşdur. Mən bütün gəncliyimi orada keçirdim. Orta məktəbi orada bitirdim. Mənim çox yaxşı müəllimlərim var idi. Ciddi müəllimlər idilər. Naxçıvanda çox yaxşı təhsil aldım. Mən orada teatra çox gedərdim – Naxçıvanda əla teatr vardı. Naxçıvan qədim sivilizasiyaya, çoxlu tarixi hadisələrə və tarixi ənənəyə malikdir. Bu mühitdə tərbiyə olundum və məni zənginləşdirən də həmin ətraf mühitdir. Digər tərəfdən, mən orada çox çətin həyat yaşadım. Atam dəmir yolu işçisi idi. Bizim ailəmiz böyük idi. Biz beş qardaş və üç bacı idik, atamın qazancı az idi. Biz çətinlik içərisində böyüdük. Ancaq mən çox yaxşı təhsil aldım. Mən həyatımdan məmnun və xoşbəxt idim. Atam 1942-ci ildə vəfat etdi. Mənim anam çox ağıllı qadın idi, mən deyərdim ki, o, Tanrı tərəfindən verilmiş bir müdrikliyə malik idi və hamımızın çox yaxşı təhsil alması üçün gərgin işlədi. Biz – hamımız alim və professor olduq. Bir qardaşım rəssam idi. Və ondan sonra mənəm. Professor olmayan təkcə mənəm.

Naxçıvan mənim həyatımda böyük rol oynadı. Mənim üçün Moskvada yaşamaq mümkün olmadığı dövrdə, 1990-cı ildə ikinci dəfə Naxçıvana qayıtdım. Mən Bakıya gəlmişdim, ancaq Bakıda yaşamağıma icazə vermədilər. Beləliklə, mən Naxçıvana qayıtdım. Və orada hamı məni doğma oğul kimi bağrına basdı.

**Betti Bleyer:** – Sizdən həyat yoldaşınız haqqında soruşmaq istəyirəm. O, necə insan idi və sizin həyatınıza necə təsir etdi?

**Heydər Əliyev:** – Mən onu hədsiz dərəcədə çox sevirdim. O, ixtisasca göz həkimi, çox gözəl insan idi. O, yaxşı ailədə böyümüş çox ağıllı qadın idi. Onun atası da professor idi. O, gözəl xarakterə malik, ağıllı və mədəni idi. 1985-ci ildə Moskvada vəfat etdi. Bu mənə böyük bir zərbə idi və çox dərindən təsirləndim. Onu itirmək mənim üçün böyük faciə idi.

**Betti Bleyer:** – Siz əksəriyyət üçün necə xatırlanmaq istəyərdiniz?

**Heydər Əliyev:** – Mən hər iki sahəyə – mədəniyyətə və iqtisadiyyata verdiyim töhfələrin xatırlanmağını istəyərdim, nəyin xatırlanmasını xüsusi deyə bilmərəm. Mən burada – Bakıdakı müasir binaların çoxunu tikmək üçün icazə almağa cavabdeh idim. Məsələn, bu bina Prezident Aparatı və Parlament binası. Həmçinin o mehmanxanalar – "Azərbaycan" və "Abşeron" mehmanxanaları. Bakının fabriklərinin çoxu mənim hakimiyyətdə olduğum dövrdə tikildi.

**Betti Bleyer:** – Beləliklə, siz, nəhayət, memar olmağı, həqiqətən, bacardınız!

**Heydər Əliyev:** – Bəli, memar kimi deyil, ancaq respublikanın rəhbəri kimi.

**Betti Bleyer:** – Əgər siz siyasətlə məşğul olmasaydınız, hansı peşəni seçərdiniz?

**Heydər Əliyev:** – Həqiqətən, mən memar olmağı planlaşdırırdım. Memar olmağı çox sevirdim. Mən özüm siyasəti seçmədim. Tale məni siyasətə gətirdi. Həyatda təkcə bir şeyi seçdim. Mən on altı yaşımda memar olmaq istədim. Baş vermiş qalan bütün hadisələrin hamısını tale müəyyən etdi. Mən heç vaxt işlədiyim vəzifələrin heç birini özüm seçmədim. Məsələn, Dövlət Təhlükəsizlik Komitəsində işlədim. General oldum. Mən bunu özüm seçmədim. Tale ora məni apardı. 1969-cu ildə mən Azərbaycanın rəhbəri olmağı düşünmürdüm, ancaq onlar məndən bunu xahiş etdi. O zaman mən hərbi general idim və sonra respublikanın rəhbəri oldum. Sonra məni Moskvaya Baş nazirin birinci müavini vəzifəsinə dəvət etdilər və oraya getdim. Daha sonra orada işləmək mümkün deyildi, mən işimdən imtina etdim. 1987-ci ildə istefaya çıxdım. Və bir daha yenidən, xalq məni prezident olmağa dəvət etdi. Mən prezident olmaq istəmirdim. Xalq məndən bunu xahiş etdi.

**Betti Bleyer:** – Ancaq tarixi baxımdan siz hər iki – sovet sistemində və indiki müstəqillik dövründə ölkənizin dövlət başçısı məsuliyyətini öz üzərinə götürən dünyada çox nadir insanlardan birisiniz. Prezident nöqteyi-nəzərindən bu sistemlərin arasında hansı əsas fərqləri görürsünüz?

**Heydər Əliyev:** – 70 il ərzində Azərbaycan Marksizm – Leninizm ideologiyasının çox yaxşı təbliğ olunduğu, hökumətin iqtisadiyyat, Kommunist Partiyası qaydaları, vətəndaşlar üzərində fərdi və toplum halda ciddi nəzarəti mərkəzləşdirilmiş qaydada həyata keçirən Kommunist rejiminin idarəçiliyi altında yaşamışdır, Azərbaycanda demokratiyaya və açıq cəmiyyətə doğru bugünkü keçid prosesi isə çox mürəkkəb və unikaldır.

İcazə verin, hökumətin və hakimiyyətin əvvəlki təcrübələrinin bəzilərini bizim indi üzərində işlədiyimiz, nailiyyət əldə etmək üçün cəhd etdiyimiz yeni üsullarla – demokratik cəmiyyət və azad bazar iqtisadiyyatı modeli ilə müqayisə edim. Təcrübə göstərir ki, belə bir dəyişiklik üçün əsas ünsürlər, hökumətə plüralist yanaşma olmalıdır. Demokratik təsisatlar və insan azadlığı gücləndirilməlidir. Və biz bazar iqtisadiyyatına keçməliyik.

İndiki dövrdə Azərbaycanda 40-dan çox fəal siyasi partiya var. Cürbəcür dövri nəşrlər və 600-dən çox siyasi qəzet nəşr edilir. Özəl sektor və fərdi şəxslər ölkənin sosial-iqtisadi və siyasi gələcəyini formalaşdırmaqda daha böyük rol oynamağa başlayırlar. Mənim fikrimcə, bunların hamısı bizim cəmiyyətimiz üçün sağlam yeni modeli, düzgün yolla qurmağa töhfə verir.

**Betti Bleyer:** – Bu iki sistemin arasında keçid mərhələsini yaşayan Azərbaycan hansı ən böyük problemlərlə üzləşir?

**Heydər Əliyev:** – Kommunist dövründən sonrakı yenidənqurma çox mürəkkəb prosesdir. Bizim resurslarımızın böyük bir hissəsinin müstəqiliyimizin qorunub saxlanılmasına və erməni təcavüzünə qarşı ərazi bütövlüyümüzün müdafiəsinə həsr olunması vəziyyətimizi daha da mürəkkəbləşdirmişdir. Keçid dövrü zəruri təkamül prosesidir. Ancaq bizim ölkəmizə üstünlüklər verən çox unikal faktorlarımız var. Hər şeydən əvvəl, bizim coğrafiyamıza baxın. Bizim ölkəmizə hədsiz dərəcədə zəngin təbii ehtiyatlar bəxş edilib. Bundan başqa, bizim gücü, texnologiyanı mənimsəmiş işçi qüvvəmiz var. Neftdən başqa, həmçinin bizim kənd təsərrüfatı sənayemiz, demək olar ki, inkişaf etdirilir.

Tarixi nöqteyi-nəzərdən danışsaq, demokratiya ideyası bizim üçün yeni deyildir. Azərbaycanda demokratiyanın, parlamentarizmin ənənəvi tarixi var. Biz müsəlman dövlətlərinin tarixində ilk dəfə Azərbaycan Demokratik Respublikasını – Xalq Cümhuriyyətini (1918-1920) yaratmışıq. O zaman ilk parlamentdə 10-dan artıq siyasi partiya təmsil olunub.

Başqa sözlə, bizim siyasi tariximiz idarəetmənin sivil formalarına tamamilə yad olmamışdır. Bir halda ki, bizim bu modelimiz var, xüsusilə indiki şəraitdə xalqımızın ehtiyaclarına həssas yanaşaraq, siyasi plüralizm ilə müşayiət edilən, tarixən vətəndaş konsepsiyasına əsaslanmış bu dəyərləri bərpa etməyi əsas məqsədimiz və vəzifəmiz hesab edirik.

**Betti Bleyer:** – Hər kəs neft müqavilələrinin imzalanmasını səbirsizliklə gözləyir. Azərbaycan tərəfinin, ölkənin gələcəyinə böyük təsir göstərəcək bu sənədlərin layihəsinin hazırlanmasında qarşılaşdığı çətinliklər hansılardır?

**Heydər Əliyev:** – Neft müqavilələri haqqında bizim mövqeyimiz belədir: biz bütün tərəflərə qarşılıqlı xeyir verən yanaşma tərzini dəstəkləyirik. Bütün tərəflərin maraqlarına zəmanət verəcək birgə yanaşma prinsipinə nail olmaq lazımdır. Bu müqavilələrə hamı üçün qarşılıqlı xeyir verən, düzgünlüyün və əməkdaşlığın əsasında nail olunmalıdır.

Azərbaycan hökuməti dünyanın nəhəng neft kooperasiyaları ilə müqavilələrimizin nəticəsində ölkəmizin məqsədlərinə nail olmasını səbirsizliklə gözləyir. Biz ölkəmizin iqtisadi müstəqilliyini gücləndirmək istəyirik. Biz vətəndaşlarımızın həyat səviyyəsini yüksəltmək istəyirik. Biz insanlarımıza güclü özünümüdafiə, sərbəstlik və daha yaxşı ali təhsilə nail olmaları üçün şərait yaratmaq istəyirik. Mən Amerika Birləşmiş Ştatları və digər Qərb ölkələrinin neft şirkətləri ilə əməkdaşlığımızın siyasi, iqtisadi, elmi və mədəni sahələrdə də digər layihələrin reallaşdırılması və gələcəkdə yaxın ələqələrimizin inkişafı ilə nəticələnəcəyinə ümid edirəm.

Mənim hər iki tərəf üçün bu əməkdaşlığın xeyirli nəticə verəcəyinə böyük ümidlərim var.

**Betti Bleyer:** – Neft müqavilələrinin imzalanması regional problemlərə necə təsir göstərəcək?

**Heydər Əliyev:** – Mən əminəm ki, bu müqavilələrin nəticəsi bizə iqtisadi müstəqilliyi gətirməklə bərabər, hər iki – həm regional, həm də beynəlxalq aləmdə bir daha siyasi vəziyyəti möhkəmləndirəcək, Azərbaycana kömək edəcək.

Şərq və Qərb arasındakı gərginliklər köhnə sovet sisteminin, soyuq müharibənin sonu, soyuq müharibənin və silahların son bazasının dağılması ilə xeyli zəifləmişdir. Bu dəyişikliklər bəzi millətlərin yenidən müstəqillik əldə etməsinə gətirib çıxarmışdır. Baxmayaraq ki, bu dəyişikliklər ilə çoxlu köhnə problem və konfliktlər yox olmuşdur, indi dünyada sülh və sivilizasiyanın bərqərar olmasına, xüsusilə təsir baxımından köhnə problemlərdən heç də az əhəmiyyəti olmayan potensial təhlükəli problemlər var.

**Betti Bleyer:** – Azərbaycanın üzləşdiyi problemlə bağlı dünya ilə hansı məsələni paylaşmaq istəyirsiniz?

**Heydər Əliyev:** – Biz minilliyin astanasındayıq, lakin təəssüf ki, biz hələ də təcavüzkar millətçiliyin, etnik təmizləmənin və dini konfliktlərin qorxunc problemləri ilə məşğul oluruq. Bizim yeni müstəqil respublikamız qonşu ölkənin (təcavüzkar Ermənistan Respublikasını nəzərdə tutur – S.A.) qeyri-insani təcavüzünün qurbanı olmuşdur.

Bu problemlər, həqiqətən, dünya birlikləri tərəfindən müzakirə edilməlidir. Nüfuzlu və güclü ölkələr, ABŞ və başqa sənayeləşdirilmiş Qərb dövlətləri bu münaqişələrin həll edilməsinə və regionda keçmiş sülhə və sabitliyə nail olmağa kömək etməkdə gərək aparıcı rol oynasınlar.

Birləşmiş Millətlər Təşkilatının (BMT) çiyinlərində bütün tərəflərin maraqlarını nəzərə alan beynəlxalq hüquq normaları çərçivəsində təsdiq və qəbul etdiyi qərarın praktik həyata keçirilməsi kimi ağır yük var.

**Betti Bleyer:** – İndi çox gecdir, demək olar ki, gecə saat 2-dir. Sizinlə görüşmək üçün mənə şərait yaratdığınıza və vaxt ayırdığınıza görə minnətdarlıq edirəm. Mən, həqiqətən, bilmirəm ki, siz bu qədər gec, gecə yarısında bu cür gərgin iş qrafiki ilə necə işləyirsiniz?

**Heydər Əliyev:** – Mən həmişə belə işləyirəm. Ötən 50 il ərzində, mən bu cür işləmişəm, təxminən, səhər saat 10-11 arasında işə gəlir, bir dəfə axşam saat 7 ərəfəsində nahar fasiləsi götürür və yenidən gecə yarısına, saat 2, yaxud 3-ə qədər işləyirəm. Həqiqətən, bu iş qrafikini necə tənzimlədiyimi də bilmirəm. Görünür, hər halda bu həmişə belə də olmalıdır.

Ancaq mən də sizə Azərbaycana gəldiyiniz üçün təşəkkür edirəm. Azərbaycanın qapısı həmişə üzünüzə açıqdır. Mən ümid edirəm ki, siz burada müşahidə etdiklərinizi, özünüz üçün yazdığınız qeydlərinizi Amerikaya və bütün dünyaya çatdıracaqsınız.

**İngilis dilindən tərcümə etdi:**
**Süsənbər AĞAMALIYEVA**
***filologiya üzrə fəlsəfə doktoru***

# “Dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!”




## COP29 – Azərbaycanın beynəlxalq arenadakı fəal rolunun dəyərləndirilməsi

*(əvvəli 1-ci səhifədə)*

COP29-un ev sahibliyi məsələsini dar düşüncədən, düşmən mövqeyindən gündəmə gətirən, ölkəmizə qarşı ittihamlarla danışan iftiraçı dairələr yaxşı olardı ki, bir qədər keçmişə nəzər salıb Azərbaycanın hansı beynəlxalq tədbirləri necə yüksək səviyyədə təşkil etdiyini görsünlər. Azərbaycan indiyə kimi “IV İslam Həmrəyliyi Oyunları 2017”, “IV Bakı Beynəlxalq Humanitar Forumu”, “Bakı-2015” birinci Avropa Oyunları”, “Beynəlxalq Astronavtika Konqresi” və “Formula 1” kimi beynəlxalq səviyyəli tədbirlərin timsalında əsl etibarlı ev sahibliyi nümunəsi yarada bilib. Həmçinin 120 ölkənin yekdil qərarı ilə dörd il ərzində, BMT-dən sonra ikinci beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatına uğurla sədrlik etməklə beynəlxalq münasibətlərin möhkəmləndirilməsinə əvəzsiz töhfələr verən Azərbaycan 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Avropa İttifaqının 10 üzvü ilə sazişlər imzalayıb və strateji tərəfdaşlıq haqqında bəyannamələr qəbul edən ölkəmiz BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə iki ildən bir Bakıda Mədəniyyətlərarası Forum təşkil edir. Xülasə, Cənubi Qafqazın lideri həm regional, həm də beynəlxalq müstəvidə çoxtərəfli əməkdaşlıqların, mədəniyyətlərarası dialoqların qurulmasında, tərəfdaşlıqların möhkəmləndirilməsində mühüm rola malikdir. Məhz bütün bu amillər 200-ə yaxın ölkə rəhbərinin tərəddüdsüz Azərbaycana növbəti etimadına, etibarına səbəbiyyət yaradıb. Ölkəmizin beynəlxalq əməkdaşlığa verdiyi siyasi, iqtisadi faydalar inam yaradır ki, COP29 vasitəsilə qlobal iqlim dəyişikliklərinə qarşı mübarizədə dövlətlərarası körpülərin qurulmasında əhəmiyyətli addımlar atılacaq, müsbət nəticələr əldə olunacaq. Prezident İlham Əliyev sessiyanın Liderlər Sammitinin açılış mərasimində bu məsələlərə xüsusi toxunaraq verilən yekdil qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenadakı fəal rolumuzun dəyərləndirilməsi olduğunu vurğuladı. Dövlətimizin başçısı Azərbaycanı təkcə coğrafiya baxımından deyil, əməkdaşlığa töhfə cəhətdən də Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkə adlandırdı: ***“Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib”.***

Azərbaycanın Avropa məkanında etibarlı enerji, ticarət tərəfdaşı kimi tanınmasından möhkəm təlaşlanan Qərbin bəzi dairələrinin növbəti qarayaxma kampaniyaları – muzdlu medianı işə salaraq neft, qaz məsələsini qabartmaqla aparılan iqlim dəyişiklikləri ilə mübarizəyə, “yaşıl enerji” siyasətinə kölgə salmaq cəhdləri də uğursuz və tutarsızdır. Həmin dairələrə və onların əlaltılarına belə həssas, ümumbəşəri mövzu üzərindən ölkəmizə iftira atmadan öncə gözlərini yaxşı-yaxşı açıb COP-un qısa tarixinə nəzər salmaqlarını tövsiyə edərdik. Və görsünlər ki, bizdən öncə ev sahibliyini yerinə yetirmiş iki ölkə (Misir, Birləşmiş Ərəb Əmirlikləri) Azərbaycandan qat-qat çox neft hasilatına malikdir. Görməli olduqları digər məqam – COP30 Brazilyada keçiriləcək və həmin ölkənin də neft ixracatında reytinqi yüksəkdir... İkrah doğuran hal isə ölkəmizi ittiham edənlər arasında ən çox neft və qaz hasil edən ölkənin media qurumunun da yer almasıdır. Prezident İlham Əliyev də sessiyanın Liderlər Sammitinin açılış mərasimində dezinformasiya yayan həmin mediaya düzgün, faktlı informasiya verməklə doğru istiqamət göstərdi: ***“Bu gün Azərbaycan qlobal neft hasilatında 0,7 faiz, qlobal qaz hasilatında isə 0,9 faiz paya malikdir. Amma dünyada bir nömrəli neft və qaz hasilatçısı olan, Azərbaycandan 30 qat artıq neft hasil edən ölkənin yalan xəbər mediası bizi neft dövləti adlandırır. Yaxşı olardı ki, ən azı onlar özlərinə və Azərbaycandan 10 dəfə artıq neft hasil edən özlərinin qonşuluğundakı ölkəyə baxsınlar. Azərbaycanın qlobal qaz atılmalarındakı payı cəmi 0,1 faizdir. Mən bu rəqəmləri auditoriyamızın diqqətinə çatdırmalıyam, çünki Azərbaycan COP29-a ev sahibi seçildikdən dərhal sonra biz əlaqələndirilmiş və yaxşıca təşkil olunmuş qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrildik”.***

COP29-un əhəmiyyətinə gəldikdə isə Azərbaycanın qlobal iqlim dəyişiklikləri ilə mübarizə, “yaşıl dünya naminə”, “yaşıl enerji” barədə gündəliyi, hədəfləri bəllidir. Ölkə başçısının 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq olunan “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də də bu məsələ xüsusilə diqqətdə saxlanılıb. Sosial-iqtisadi inkişafa dair beş Milli Prioritetdən biri kimi müəyyən olunan təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi prioriteti üzrə ötən dövrdə bir sıra layihələrə imza atılıb. Şərqi Zəngəzur, Qarabağ və Naxçıvanın “yaşıl enerji zonaları” elan edilməsi və bu istiqamətdə görülən işlər sözügedən prioritetin icrası baxımından xüsusilə diqqəti çəkir. Nümunə üçün işğaldan azad olunan ərazilərdə, o cümlədən Kəlbəcər və Laçın rayonlarında su elektrik stansiyalarının tikintisi, eləcə də Naxçıvanda bərpa olunan enerji mənbələrinə dair mövcud infrastruktur, muxtar respublikada “yaşıl enerji” istehsalı üçün dövlət tərəfindən 1000 hektar ərazinin ayrılması və bunlara müvafiq digər tədbirlərin həyata keçirilməsini qeyd edə bilərik. Ölkəmizdə “yaşıl enerji”yə uğurlu keçidin nəticəsidir ki, əvvəlki illərlə müqayisədə 2023-cü ildə Azərbaycanda bərpa olunan enerji mənbələrinin gücü 373,6 meqavat artıb. Naxçıvandakı stansiyaların hazırkı generasiya gücü isə 244,8 MVt-dır və yaxın illərdə bu göstəricinin 6 dəfə artırılması, 1500 MVt güc əlavə olunması nəzərdə tutulur. Bu tədbirlərin davam kimi, COP29 çərçivəsində Cəbrayıl rayonunda 240 MVt gücündə “Şəfəq” Günəş Elektrik Stansiyasının təməlqoyma mərasiminin keçirilməsi də ölkəmizin ümumbəşəri hədəflərə doğru inamla irəlilədiyini göstərir... Dövlətimizin başçısı COP29-un Liderlər Sammitinin açılış mərasimində ölkəmizin yaşıl gündəliyi haqqında zəngin məlumatlar verdi, 2030-cu ilə qədər, təxminən, altı giqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsinin planlaşdırıldığını, 10 giqavatlıq bərpa olunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumlarının imzalandığını bildirdi. Yaşıl gündəliyin gələcək perspektivlərindən danışan Prezident görüləcək işlərin bu sahədə hələ başlanğıc olduğunu vurğuladı: ***“Biz həmçinin ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq. Bu bizə Avropaya “yaşıl enerji”ni ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı dörd giqavatdır. Yeri gəlmişkən, texniki-əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu yalnız başlanğıcdır”.***

Ümumilikdə, onu vurğulamaq olar ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində dünyanın aparıcı liderlərinin ölkəmizə səfərləri, siyasi xadimlər, ekspertlər tərəfindən səslənən fikirlər tədbirin yüksək şəkildə təşkilindən xəbər verir. Və beləliklə, Azərbaycanın beynəlxalq səviyyədə böyük diplomatik uğurunu, faydalı əməkdaş, etibarlı tərəfdaş imicini gözü götürməyən dairələrin apardığı qarayaxma kampaniyaları, sessiyanı boykot etmək planları fiaskoya uğramaqdadır. Ölkə başçısının dəqiqələr, saniyələr içərisində ünvanladığı tutarlı siyasi mesajlar bir ildir, boykota təşviqlə məşğul olan qüvvələrin çətin ki, yaddaşlarından tez zamanda silinər: ***“Mənim sonuncu mesajım, təxminən, bir ildir ki, boykotu təşviq edən dairələrdir. Onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın. Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!”***

**Nail ƏSGƏROV**



# Ağ günləri geri dönür Ağdamın





### *Zəfərin səsini eşidirdik*

Ömrümün 4 ilini Ağdam rayonunun cəbhə bölgəsində yerləşən kəndlərində keçirmişəm. Orada tanımışam Ağdamın qoçaq, vətənpərvər, məğrur insanlarını. Və onlarla bərabər hər səhər səngərin o tayında, Ağdam şəhərində, Qarakənd qəsəbəsində dinamit döşənib partladılan hündürmərtəbəli binaların, vandalizmə məruz qalan tarixi abidələrin göyə sovrulan dumanını ürəkağrısı ilə izləmişəm. Yandırılan torpaqlarımızın yüksələn alovunu görmüşəm. Dağıdılan abidələrin, yandırılan torpaqların dumanı illərlə dilə gəldi. Bir vaxtlar "Qafqazın qapısı" adlandırılan Ağdam ermənilərin vandallığı ucbatından Qafqazın Xirosimasına döndü. Uzun illər öz Vətənindən öz yurduna həsrətlə,



ürək yanğısı ilə baxdılar ağdamlılar. Bu isə damarında azərbaycanlı qanı axan hər kəsin ürəyində qəzəb, intiqam atəşini alovlandırırdı. Səngərdə dayanan hər bir hərbçi isə hər an bu həsrətə son qoymağa hazır idi. Öz doğma torpaqlarından zorla çıxarılanlar bilirdilər ki, məqam gözləyir Azərbaycan əsgəri Aprel döyüşlərində olduğu kimi. Cəmi dörd gün ərzində düşmənin illərlə qurduğu istehkamları yarıb Lələtəpə və Talış yüksəkliklərini, Naxçıvan istiqamətində bir gecədə 11 min hektar ərazini azad edən ordumuzun hər bir əsgəri yeri gələndə Səməd bəy Mehmandarov, yeri gələndə Polad Həşimov, yeri gələndə Mübariz İbrahimovdur.

Hər bir ağdamlı yaxşı bilirdi ki, Ali Baş Komandan, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə işğal altındakı torpaqlarımız azad ediləcək, gündən-günə qüdrətlənən ölkəmizin üçrəngli bayrağı bu yerlərdə də dalğalanacaq. Silahı dosta kölgə, düşmənə ölüm gətirən ordumuz xalqımıza tarixin ən şanlı Zəfər gününü tezliklə yaşadacaq. Və 2020-ci il sentyabr ayının 27-də, bütün cəbhəboyu əks-hücum əmri veriləndə ürəyi doğulduğu yurd yerinin həsrəti ilə yanan ağdamlıların da ümid dolu baxışları yollara dikildi. Döyüş gedən ünvanlardan gələn qələbə xəbərləri ilə sevinib Ağdamın da işğaldan azad ediləcəyi günü gözlədilər. 44 gün Azərbaycan əsgəri döyüş meydanında şanlı zəfər tarixi yazıb, cənnət Qarabağı düşməndən azad etdi. Döyüş meydanında düşməni diz çökdürdü. Azərbaycan əsgərinin igidliyi qarşısında sınan düşmən 10 noyabrda təslim aktını imzaladı. Döyüş meydanındakı qalibiyyət siyasi masada da qələbəyə çevrildi. Nəticədə, Ağdam, Kəlbəcər, Laçın bir güllə belə atılmadan azad edildi. 20 noyabr 2020-ci il Azərbaycan tarixinə Ağdamın ağ günlərinə qayıdış günü kimi düşdü.

Bu zəfər Azərbaycanın ən böyük diplomatik qələbəsi oldu. Şəhər işğaldan azad ediləndən sonra buraya səfər edən ölkə başçısı şəhərin mərkəzində bayrağımızı ucaltdı. Düşmənin xarabaya çevirdiyi Cümə məscidinə ayaqyalın girib 44 günlük Vətən müharibəsində düşmənə dəstək verən bəzi ölkələrə dərs verdi: ***"Bu gün mən Ağdam məscidinə Məkkədən gətirdiyim "Qurani-Kərim"i bağışladım. Mən xoşbəxt adamam ki, dörd dəfə Məkkə ziyarətində olmuşam. Bir dəfə rəhmətlik atamla, üç dəfə isə Prezident kimi. Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq".*** Həmin gündən bu yana Ağdam şəhəri və ətraf kəndlərdə yerinə qoyulan hər daş Böyük Qayıdışın təməlini bərkidir. Bu torpağın hər qarışı çiçək açıb öz doğmalarını qucaqlamağa can atır.

Müzəffər Ali Baş Komandan düşmənin xarabaya çevirdiyi Ağdamdan mesajlar verib "dəmir yumruğ"un həmişə yerində olduğunu bildirdiyi ilk səfərdən bu günə kimi Ağdam quruculuq meydanına çevrilib. Artıq şəhərdə göylərə yüksələn torpaq uçulan yox, qurulan Ağdamın ətrini aləmə yayır. Yaxın kəndlərdən öz doğma şəhərini izləyən ağdamlılar bu zəfəri bizə bəxş edən oğulların ruhuna dualar edir. Cümə məscidinə qayıdıb yerinə qoyulan daş parçası bir xalqın torpağından qoparılan hər parça daşa necə sahib çıxdığını göstərir.

### *Yenidən Qafqazın cənnəti olan şəhər*



Vaxtilə vandal ermənilərin ruhlar şəhərinə döndərdiyi Ağdamın hər qarışı minalardan təmizlənib quruculuq meydanına çevrilir. Böyük Qayıdış proqramına əsasən 2026-cı ilədək Ağdam şəhərində keçmiş məcburi köçkünlər üçün beş yaşayış məhəlləsi və rayonda 12 kənd tikiləcək. Artıq şəhərdə Ağdam Konfrans Mərkəzi istifadəyə verilib, 1 nömrəli tam orta məktəbin, ilk yaşayış məhəlləsinin, "Ağdam Residence" yaşayış kompleksinin, "City Hotel Ağdam" mehmanxanasının, Ağdam Muğam Mərkəzinin, "Park Qarabağ" yaşayış kompleksinin tikintisi həyata keçirilib. Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işləri yekunlaşıb. Rayonda iqtisadiyyatın, yerli istehsalın inkişafı məqsədilə sənaye parkı yaradılır. Ağdam Azərbaycan Prezidentinin diqqət və qayğısı ilə regionun ən gözəl şəhərlərindən birinə çevriləcək, doğma yurdlarından 30 il ayrı düşmüş insanların bu torpaqlara təhlükəsiz şəraitdə qayıdışı təmin ediləcək. Ağdam şəhərinin layihələndirmə və tikinti işlərinə şəhər mərkəzini formalaşdıran tarixi ünvandan başlanılmışdır. Cümə məscidi, Pənahəli xanın imarətinin bərpası yüksək peşəkarlıqla həyata keçirildi. Ulu Öndərin arzularını müzəffər Ordu və Heydər Əliyev Fondu yerinə yetirdi. Fondun dəstəyi ilə tarixi yerlər əvvəlki görkəminə qaytarıldı. Ağdam şəhərinin birinci yaşayış məhəlləsində 1139 mənzilin tikintisi və 4977 nəfərin köçürülməsi planlaşdırılır. İkinci yaşayış məhəlləsində 1261 mənzil tikiləcək və 5510 nəfər köçürüləcək. Zəfər Muzeyi və Açıq Hava altında İşğal Muzeyi isə tariximizin canlı şahidləri olacaq. Ağdamda əhalinin sosial həyatını təmin etmək məqsədilə 300 hektar ərazisi olan Meşə Parkının və Ağdam Mərkəzi Parkının salınması prioritet məqsədlərdəndir. Qarabağ iqtisadi rayonunun "yaşıl enerji zonası" elan olunması ilə əlaqədar Ağdam şəhərində mərkəzi istilik sisteminin yaradılması qərara alınıb.

### *Qarabağ atları öz yurduna qayıdır*

XX əsrdə Qarabağ cinsinin tarixində ən önəmli hadisə olan Ağdam Atçılıq Zavodu da erməni təcavüzünə məruz qaldı. 1993-cü ildə Ağdam rayonunun erməni təcavüzkarları tərəfindən işğal edilməsindən sonra Azərbaycanın milli sərvəti, yerli genofondumuzun əsaslarından olan Qarabağ atları köçkünlük həyatı yaşadı. Ağdam Atçılıq Zavodu 1994-cü ildən Ağcabədi rayonunun Xamtorpaq ərazisində fəaliyyət göstərməyə başladı.

Deyirlər ki, torpaq həsrətini təkcə insanlar çəkmir. Bu həsrət elə dərin bir duyğudur ki, bitki də, heyvanlar da öz yurdundan uzaq qalanda həsrət çəkir üréyi. Dilsiz-ağızsız Qarabağ atları da Ağdam işğal olunandan bəri yurd həsrəti çəkirdi. Vətənimizin cənnət guşəsi Qarabağ azad ediləndə, bəlkə də, Qarabağ atı da duydu öz yurduna qayıdacağı günün gəldiyini. O da həsrətlə gözləmişdi axı doğma Ağdamına qayıdacağı günü. Və həmin gün gələndə Qarabağ atı Ağdamda doğulduğu torpaqda şahə qalxdı.

Və bu gün dirçələn, gözəlləşən Ağdam öz doğma sakinlərini qarşılamağa hazırlaşır. Cümə məscidindən yüksələn azan səsi insanları öz yurduna çağırır. Cənnətə dönən Ağdamın azad səmasında pərvaz edən şəhid ruhları şad olur. 28 il köksünü ikiyə bölən səngərlər igid oğulların canı ilə aşılıb artıq. Ağdamın hər tərəfində dalğalanan üçrəngli bayraq gələcək gözəl günləri müjdələyir. Ağ günləri geri dönür Ağdamın.

**Ramiyə ƏKBƏROVA**

# Naxçıvanda Zəfər Günü böyük təntənə ilə qeyd edilib








Noyabrın 8-də Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyinin qarşısında Zəfər Günü münasibətilə konsert proqramı və atəşfəşanlıq keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət, hökumət nümayəndələri, Ali Məclisin deputatları, muxtar respublika sakinləri və qonaqlar konsertə baxıblar.

Konsert proqramında Naxçıvan Dövlət Filarmoniyasının və Naxçıvan Qarnizonu Hərbi Orkestrinin təqdimatında vətənpərvər ruhlu əsərlər səsləndirilib.

Ölkəmizin tanınmış ifaçıları Hiss və Zamiq Hüseynovun qələbə ovqatlı ifaları bayram konsertinə xüsusi rəng qatıb, qələbəliyin alqışları ilə müşayiət olunub.

Sonda nümayiş etdirilən möhtəşəm atəşfəşanlıq maraqla izlənilib.





Qeyd edək ki, konsert Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Naxçıvan Şəhər İcra Hakimiyyəti və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə baş tutub.

# Ali Məclisin payız sessiyasının növbəti iclası keçirilib

Noyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə Ali Məclisin payız sessiyasının dördüncü iclası keçirilib.

Bəxtiyar Məmmədov iclasın gündəliyində duran məsələnin Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin seçilməsinin müzakirəsi olduğunu bildirib.

Gündəlik təsdiq olunduqdan sonra məsələ ilə əlaqədar Ali Məclis Aparatının rəhbəri Ülvi Hüseynli məlumat verib.





Ali Məclis sədrinin birinci müavini "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununa müvafiq olaraq Mərkəzi Seçki Komissiyası üzvlərinin Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin təklifinə əsasən Ali Məclis tərəfindən 5 il müddətinə seçildiyini qeyd edib, Mərkəzi Seçki Komissiyasının üzvlüyünə namizədləri – Bağırov Orxan Rza oğlunu, Əliyev Asim Yediyar oğlunu, Heydərli Elşən Sadıq oğlunu, Həsənli Çingiz Namizəd oğlunu, Orucəliyev Ramil Əli oğlunu, Rüstəmova Məlahət Oruc qızını və Yaqubov Nicat Əsgər oğlunu təklif edib.

Gündəlikdə duran məsələ ilə əlaqədar Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev çıxış edib, təklif olunan namizədlərin fəaliyyətini yüksək qiymətləndirib.



Müzakirə olunan məsələ ilə bağlı qərar layihəsi oxunduqdan sonra səsə qoyularaq qəbul edilib.

Mərkəzi Seçki Komissiyasının üzvü Ramil Orucəliyev komissiyyanın yeni tərkibinə etimad göstərdiklərinə görə Ali Məclisin bütün üzvlərinə minnətdarlığını bildirib, komissiyanın bundan sonrakı fəaliyyətində də seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi üçün bütün lazımi addımları atacağını diqqətə çatdırıb.

Bununla da iclas başa çatıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Şəhidlər bağı salınıb



Vətən müharibəsində şanlı Ordumuzun igidliyi ilə qazandığı Qələbənin dördüncü ildönümündə "Naxçıvan Qaziləri" İctimai Birliyinin təşkilatçılığı, ictimaiyyət nümayəndələri və şəhid ailələrinin iştirakı ilə "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə gedən yolun kənarında Şəhidlər bağı salınıb. Tədbirdə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib. "Naxçıvan Qaziləri" İctimai Birliyinin sədr müavini Əli Əlisoy çıxış edərək bildirib ki, bağda Birinci və İkinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalan igid naxçıvanlı Vətən oğullarının adına meyvə tingləri əkiləcək. Gələcəkdə Şəhidlər bağının meyvələri Vətənin keşikçiləri olan əsgərlərə göndəriləcək.

"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin sədri Mais Gülməmmədov bildirib ki, Vətən müharibəsi xalqımızın igid oğullarının sayəsində qələbə ilə bitdi. Vətəni üçün döyüşən hər kəs bu xalqın qəhrəmanıdır. Onların xatirəsi daim uca tutulur. Dövlətimiz hər bir şəhid ailəsinə qayğı ilə yanaşır. Şəhidlərə ümumxalq sevgisi böyükdür.

"Şərur Şəhid Ailələri" İctimai Birliyinin sədri Rəhim Mədətov diqqətə çatdırıb ki, Vətən oğullarının xatirəsini yaşatmaq hər bir vətəndaşın borcudur. Azərbaycan xalqı torpaq uğrunda canından keçən igid oğulları heç vaxt unutmur. Bu Vətən var olduqca onlar da var olacaq.

Babək Rayon İcra Hakimiyyətinin başçısı Ovni Muradov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin apardığı siyasət nəticəsində güclənən ordumuz düşmənə sarsıdıcı zərbə vuraraq illərdir, işğalda qalan torpaqlarımızı cəmi 44 gündə azad etdi. 10 noyabr xalqımızın tarixində xüsusi günlərdən birinə çevrildi. Düşmən diz çökdü və təslim aktına qol çəkdi. Azərbaycan əsgərinin döyüş meydanındakı igidliyi siyasi masada da qələbə ilə tamamlandı. Ağdam, Laçın, Kəlbəcər bir güllə atılmadan azad edildi. Naxçıvanın igid oğulları Vətən savaşında qəhrəmanlıq göstərib öz müqəddəs yollarını Şuşada tamamlayıb "dəmir yumruğ"un bir parçası oldular.

Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov bildirib ki, Şərur rayonu Birinci və İkinci Qarabağ müharibəsində, ümumilikdə, 103 şəhid verib. Onların xatirəsi daim uca tutulur. Ulu Öndər Heydər Əliyevin siyasi xəttinin davamçısı Prezident cənab İlham Əliyevin diqqəti nəticəsində şəhid ailələri və qazilər dövlətin qayğısı əhatəsindədirlər. Şərur rayonunda da igid Vətən oğullarının ailələri dövlət qayğısını hiss edir.

Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov bildirib ki, qədim Kəngərlilərin davamçıları olan igid oğullar Birinci və İkinci Qarabağ müharibəsində igidlik göstərib Vətənin qəhrəmanları adını aldılar. Vətən savaşında bir ovuc torpaq üçün canından keçib, Vətəni bütövləşdirib 1990-cı illərdə şəhid olan oğulların ruhunu şad etdilər.

Şəhid Şükür Hacıyevin anası Fatma Şükürlü aksiyanın təşkilatçılarına təşəkkür edib. Bildirib ki, Naxçıvan qaziləri hər zaman öz şəhid qardaşlarının xatirəsini uca tutur. Daim onları anır. Bugünkü ağacəkmə də bu tədbirlərin davamıdır.

"Naxçıvan Qaziləri" İctimai Birliyinin sədri, Vətən müharibəsi qazisi Cehun Bayramov qeyd edib ki, muxtar respublikanın bütün rayonlarında şəhidlərimizin xatirəsinə ağacəkmə aksiyaları keçirilib. Bu gün burada Naxçıvanın 1990-cı illərdən bu günə kimi şəhidlik zirvəsinə ucalan oğulların hər birinin adına bir meyvə tingi əkilir. Bütün rayonlardan olan qəhrəmanların xatirəsi əbədiləşdirilir. Gələcəkdə bağın girişində şəhidlərin xatirəsinə bulaq-abidə kompleksi yaradılacaq.

Qeyd edək ki, aksiya çərçivəsində 500-ə yaxın ərik və gilas tingi əkilib.

# Maliyyə naziri Həsən İsmayılov "Maliyyə peşəsinin inkişafına verdiyi töhfəyə görə" LUCA mükafatına layiq görülüb




Böyük Britaniyanın paytaxtı Londonda keçirilən "Mühasiblərin Zirvə Toplantısı 2024" Beynəlxalq Sammiti çərçivəsində mühasibatlıq dünyasının Oskarı sayılan LUCA mükafatının təqdimat mərasimində Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılov mükafata layiq görülüb. Nazir "Maliyyə peşəsinin inkişafına verdiyi töhfəyə görə" LUCA nominasiyası üzrə mükafatlandırılıb.

Mükafatlandırma zamanı nazir LUCA mükafatının yalnız yüksək peşəkarlığın və maliyyə sahəsindəki nailiyyətlərin tanınması deyil, həm də beynəlxalq səviyyədə tərəfdaşlıqlarımızı və inamımızı gücləndirmək üçün bir təkan rolu oynadığını qeyd edib. Həmçinin maliyyə sektorunda şəffaflıq və innovasiyaların təşviqi istiqamətində atılan addımların bu mükafatla daha da əhəmiyyətli göründüyünü və daha böyük nailiyyətlərə sövq etdiyini vurğulayıb.

Qeyd edək ki, LUCA mükafatı Luca Paciolinin şərəfinə təsis edilmiş və maliyyə sahəsinin yüksək nailiyyətlərini tanıdan nüfuzlu mükafatdır.

# Azərbaycan beynəlxalq tədbirlərin mükəmməl təşkilatçılıq modelini yaradıb

## Əjdər Əliyev: "Bütün dünyanın diqqəti yenidən Azərbaycanda"



"Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP) hər il keçirilən dünyanın ən mötəbər tədbirlərindən biridir. Tədbirə sədrlik BMT-nin beş regionu arasında yerdəyişmə əsasında müəyyən olunur. COP28-in 2023-cü il dekabrın 11-də keçirilən plenar iclasında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-un Azərbaycanda keçirilməsi qərara alınıb. Azərbaycanın sürətli inkişafı, müasir dünyaya inteqrasiyası, müxtəlif beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməsi, qlobal problemlərin müzakirə olunduğu platformalardakı qətiyyətli mövqeyi, ümumiyyətlə, ölkəmizin mədəniyyətlərarası dialoq mərkəzinə çevrilməsi bu qərarın qəbul edilməsini zəruri edib".

Bu sözləri "Şərq qapısı"na açıqlamasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əjdər Əliyev deyib.

Deputat bildirib ki, COP29 iki həftəyə yaxın müddətdə qlobal iqlim dəyişikliklərinə qarşı mübarizə sahəsində əhəmiyyətli platforma olmaqla ölkəmizi bütün dünyanın diqqət mərkəzinə salacaq. 196 ölkədən 72 mindən çox iştirakçının vahid amal ətrafında birləşdiyi bu möhtəşəm tədbir həm də ölkəmizin dünyada tanıdılması baxımından olduqca əhəmiyyətlidir. Artıq bir neçə gündür, ölkəmizin COP29-a uğurlu ev sahibliyindən bəhs edən yüzlərlə süjet yayımlanır. COP29 iştirakçıları tərəfindən sosial şəbəkələrdə ölkəmizlə bağlı on minlərlə foto və video paylaşılır. Həmin paylaşımlarda ölkəmizin adət-ənənələrindən, xalqımızın qonaqpərvərliyindən, milli mətbəximizdən, tariximizdən, Bakımızın gözəlliyindən geniş bəhs olunur. Bütün maneələrə, dezinformasiyalara baxmayaraq, mühüm beynəlxalq tədbirlərin uğurlu təşkilatçısı kimi Azərbaycan bu tədbirə də uğurla ev sahibliyi edir.

"Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Liderlər Sammitinin açılış mərasimində Prezident cənab İlham Əliyevin dediyi kimi: ***"Mənim sonuncu mesajım, təxminən, bir ildir ki, boykotu təşviq edən dairələrədir. Onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın. Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!"*** Azərbaycan bütün boykot tədbirlərinə baxmayaraq, COP29-a uğurla ev sahibliyi edərək qlobal iqlim dəyişikliklərinə qarşı mübarizədə öz üzərinə düşən vəzifələri yerinə yetirməklə dünyanın diqqətini yenidən ölkəmizə yönəldir", – deyə deputat Əjdər Əliyev əlavə edib.






## COP29 miqyasına görə dünyanın ən böyük tədbiridir




Bu konfransda müzakirə edilən məsələlər qlobal xarakter daşıyır. Ölkəmizdə qlobal məsələlərin müzakirə olunması, bu istiqamətdə qərarların qəbul edilməsi mühüm əhəmiyyət kəsb edir. COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin iqtisadi və sosial cəhətdən inkişafını da gücləndirəcək. Azərbaycanın nüfuzunu daha da artıracaq. Ətraf mühitin qorunması, iqlim dəyişikliyi ilə bağlı fərqli sahələrdə qəbul edilən qərarlar, aparılan müzakirələr həm də COP29-dan faydalanmaq imkanı yaradacaq. Paytaxtımızda keçirilən mötəbər tədbirdə dünyanın aparıcı ölkələrinin nümayəndələri, o cümlədən onların liderləri iştirak edirlər. Bu da fərqli ölkələrin bir araya gəlməsi, fikir mübadiləsi aparılmasına imkan yaradır.

Bu tədbir ona görə böyük əhəmiyyət daşıyır ki, konfransda müzakirə olunacaq məsələlər bir ölkənin deyil, bütün dünyanın problemidir. Əldə olunan nəticələrdən bütün dünya ölkələri faydalanacaq.

**Üzeyir MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

## COP29 Azərbaycanı dünyada daha etibarlı tərəfdaş kimi tanıdacaq



Noyabrın 11-dən başlayaraq dünyanın nəbzi Bakı ilə döyünür. COP29-un ölkəmiz üçün müxtəlif istiqamətlərdə əhəmiyyəti var. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizə gələn bütün dövlət və hökumət başçıları ilə ikitərəfli görüşlər keçirir ki, bu da əməkdaşlıq imkanlarını genişləndirmək baxımından çox əhəmiyyətlidir.

Bu bir həqiqətdir ki, COP tədbirləri, adətən, siyasi sabitliyi təmin etmiş ölkələrdə keçirilir. Çünki belə konfranslarda 100-dən çox dövlət və hökumət başçısı iştirak edir. Əgər siyasi sabitlik olmasa, onların bir yerdə tədbirdə iştirakı da mümkün deyil. Bu baxımdan Azərbaycanın siyasi sabitlik və təhlükəsizliyi təmin edən ölkə olduğunu dünya ictimaiyyəti artıq qəbul edib. Ölkəmizə gələn yüksəksəviyyəli qonaqlar öz gözləri ilə sabitlik ölkəsinə gəldiklərinin də şahidi olurlar.

Bu beynəlxalq tədbir ölkəmizin bərpa olunan enerji və qeyri-neft sektoruna investisiya axınının sürətlənməsinə də töhfə verəcək. Çünki sərmayədarlar iqtisadiyyatı dinamik inkişaf edən, siyasi sabitliyi təmin olunmuş ölkələrə investisiya yatırmaqda maraqlıdırlar. O cümlədən ölkəmizin iqtisadi potensialı və investisiya mühiti sərmayəçilər üçün cəlbedicidir. COP29-a gəlmiş müxtəlif sahələri əhatə edən qonaqlar ölkəmizin iqtisadi potensialı ilə tanış olmaq imkanına malik olacaq ki, bu da gələcəkdə ölkəmizə marağın daha da artmasına səbəb yaradacaq.

Konfrans həm də ölkəmizin turizm potensialının təbliği baxımından da yaxşı fürsətdir. Ölkəmizə gələn qonaqlar Azərbaycanın mədəniyyəti, tarixi məkanları, işğaldan azad olunmuş ərazilərin turizm potensialı, mətbəxi və gəzməli yerləri ilə tanış ola biləcəklər. Bu da həmin şəxslərin gələcəkdə də ölkəmizə səfər etməsinə, o cümlədən öz ölkələrinə qayıtdıqdan sonra ətrafında olan insanlara ölkəmiz haqqında məlumat verməlrinə imkan verəcək. Ölkəmizdəki sabit və təhlükəsiz mühit dünya ictimaiyyətində Azərbaycana marağın artmasına səbəb olacaq. Həm də turizm sektorunda aktivliyin artması yeni iş yerlərinin açılmasına və qeyri-neft sektorunun digər sahələrinin də inkişafına təkan verəcək.

COP29 Azərbaycanı dünyada daha etibarlı tərəfdaş kimi bir daha tanıdacaq. Bu da beynəlxalq arenada sözümüzün gücünün artmasına və mövqelərimizin möhkəmlənməsinə töhfə verəcək. COP29 həm də anti-Azərbaycançı və islamofob baxışlarını sərgiləyən bütün dairələr üçün ən yaxşı cavabımızdır.

**Şəhla ƏHMƏDOVA**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

## Vüsal Məmmədzadə: "Bu mübarizədə ölkələrin üzərlərinə düşən öhdəliyi yerinə yetirmələri çox vacibdir"



Ölkəmizdə ətraf mühitin qorunması, iqlim dəyişikliklərinin qarşısının alınması istiqamətində atılan addımlar – Günəş, külək enerjisinin əldə olunması sahəsində həyata keçirilən layihələr, işğaldan azad edilmiş ərazilərin, həmçinin Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji zonası" elan olunması, Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı bu istiqamətdə aparılan dövlət siyasətinin bariz nümunəsidir.

Bu sözləri "Şərq qapısı"na müsahibəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Vüsal Məmmədzadə söyləyib.

O deyib: "Mütəxəssislər bildirirlər ki, qlobal temperatur 2ºC-dən yuxarı qalxarsa, ekstremal hava hadisələri, o cümlədən daşqınlar, quraqlıqlar, məhsul itkisi və digər ciddi iqlim problemləri də artacaq. Bu yalnız ekologiya üçün deyil, həm də iqtisadiyyat üçün böyük təhdidlər yaradacaq. Su ehtiyatları tükənə, qida təhlükəsizliyi pozula, bir çox regionlarda isə məcburi köçkünlük halları arta bilər. Həmin problemlərin qarşısını almaq üçün qlobal temperaturun 2ºC altında saxlanılması məqsədi strateji və vacib addımdır. Bu baxımdan bəşəriyyəti təhdid edən qlobal iqlim dəyişikliyi ilə mübarizə istiqamətində bütün ölkələrin həmrəyliyi və üzərlərinə düşən öhdəliyi yerinə yetirmələri olduqca vacibdir".

Vüsal Məmmədzadə qeyd edib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının keçirildiyi ölkəmizin paytaxtı, təxminən, iki həftə ərzində iqlim dəyişikliyi ilə mübarizədə həmrəylik üçün mühüm platforma rolunu oynayacaq. Qlobal tədbirdə iştirakla paralel olaraq ölkəmizə səfər edən çoxsaylı hökumət başçıları, hökumət üzvləri, digər siyasi, ictimai elm xadimləri, QHT nümayəndələri ölkəmizin "yaşıl enerji"dən əldə edilən gəlirləri ölkənin hərtərəfli dirçəlişinə, insan kapitalının inkişafına yönəltməsinin şahidi olurlar. COP29 Azərbaycanın regionda və qlobal səviyyədə iqlim problemlərinin həllində aparıcı rol oynamağa hazır olduğunun təsdiqidir. Bu diplomatik addım Azərbaycanın dayanıqlı iqtisadi inkişafını, təbiətdən əldə olunan təmiz enerji istehsalının artırılmasını və ətraf mühitin qorunmasına yönəlmiş təşəbbüslərin qlobal müstəvidə təqdimatına xidmət edir.

"İqlim dəyişikliyinin təsirlərini azaltmaq üçün hər bir insanın rolunun əhəmiyyəti, onların enerji səmərəliliyi, su ehtiyatlarının qorunması, tullantıların azaldılması və təkrar emal kimi gündəlik fəaliyyətlərdə iştirak etməyə qarşı həssaslıq nümayiş etdirməsi vacib məqamlardandır. Prezident cənab İlham Əliyevin söylədiyi kimi, qarşıdakı illərdə yaradılacaq "yaşıl dünya"ya Azərbaycan özünün möhürünü vuracaqdır. Bu prosesdə muxtar respublika sakinlərinin də üzərinə mühüm vəzifələr düşür. Mən də, öz növbəmdə, bütün vətəndaşlarımızı Yaşıl dünya naminə həmrəy olmağa çağırıram", – deyə Ali Məclisin deputatı əlavə edib.

## Ölkəmiz tarixinin möhtəşəm dövrlərindən birini yaşayır



COP29 konfransının Bakıda keçirilməsi, Azərbaycanın regionda və qlobal səviyyədə iqlim problemlərinin həllində aparıcı rol oynamağa hazır olduğunu göstərir və Prezident cənab İlham Əliyev siyasətinin növbəti təntənəsidir. Bu diplomatik addım, Azərbaycanın dayanıqlı iqtisadi inkişafına, təmiz enerji istehsalının artırılmasına və ətraf mühitin qorunmasına yönəlmiş təşəbbüslərinin qlobal müstəvidə təqdimatına xidmət edir. Azərbaycan iqlim dəyişikliyinə qarşı mübarizədə həm inkişaf etməkdə olan, həm də inkişaf etmiş ölkələrlə əməkdaşlığı inkişaf etdirərək bu sahədə əhəmiyyətli rol oynayıb. 70 mindən artıq iştirakçının qatıldığı belə bir nüfuzlu tədbirə ev sahibliyi etməyimiz, eləcə də 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması kimi ölkədə "yaşıl iqtisadiyyat"ın, "yaşıl enerji"nin, "yaşıl texnologiya"ların tətbiqinə, geniş mənada, "yaşıl artım"a hesablanmış strateji qərar Azərbaycanın iqlim dəyişiklikləri, biomüxtəliflik, ərzaq təhlükəsizliyi, bərpa olunan və digər sahələrdə elmin və təhsilin inkişafına, yüksək texnologiyalar üzrə əməkdaşlıq və bilik mübadiləsinə əhəmiyyətli təkan verəcək.

COP29-la bağlı Azərbaycana gəlmiş on minlərlə xarici ölkə nümayəndəsi, media və vətəndaş cəmiyyəti, beynəlxalq təşkilat təmsilçiləri Vətənimizin təbii və antropogen landşaftlarının özəlliklərini, ölkənin siyasi sistemində və sosial-iqtisadi inkişafında qazanılmış nailiyyətləri, əhalinin sabitlik, əmin-amanlıq və rifah halında yaşayışını, dövlətin dini və etnik tolerantlığa əsaslanan dünyəvi quruluşunu, insanlarımızın xeyirxahlığı və qonaqpərvərliyini, yüksək mədəniyyətini öz gözləri ilə seyr etmək imkanı əldə edirlər. Şübhəsiz, bütün bunlar Azərbaycan dövlətinin və xalqının beynəlxalq imicinin daha da yaxşılaşmasına, turizm sektorunun intibahına, ölkə iqtisadiyyatına xarici investisiya qoyuluşunun artmasına da real töhfələr verəcək.

**Aysel DÜNYAMALIYEVA**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

## Xarici siyasətin böyük uğuru – COP29



Ölkəmizin dünyanın ən mühüm və dövlətlərarası tədbirlərindən biri olan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP) 29-cu sessiyasına ev sahibliyi etməsi dövlət başçısı, Prezident cənab İlham Əliyevin növbəti diplomatik qələbələrindən biridir. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurlarındandır.

Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə COP29-a ev sahibliyi edən Azərbaycanda bütün zəruri tədbirlər həyata keçirilib, ölkəmizdə lazımi infrastruktur yaradılıb. Dövlət başçısı tərəfindən "yaşıl enerji zonası" elan edilən Naxçıvan Muxtar Respublikasında da, həmçinin iqlim dəyişikliyi ilə mübarizə, təhlükəsiz və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə sahəsində innovativ layihələr icra olunub. Bu il oktyabrın 26-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə Naxçıvan şəhərində COP29 və "Yaşıl dünya naminə həmrəylik ili" ilə bağlı "GreenFest" keçirilib. Müxtəlif panel müzakirələrin, maarifləndirici tədbirlərin təşkil olunduğu festivalda əsas məqsəd əhalinin diqqətini ekoloji problemlərin həllinə yönəltmək, o cümlədən Naxçıvanda təbii resurslardan səmərəli şəkildə istifadə imkanları və "yaşıl enerji" potensialını göstərməklə ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli tədbirin hədəflərinə öz töhfələrini ərməğan etməkdir.

Hazırda böyük uğurla ölkəmizdə reallaşmaqda olan bu mötəbər tədbir məhz dövlət başçısı cənab İlham Əliyevin uğurlu xarici siyasətinin təcəssümüdür. Əminik ki, Bakı şəhərində keçirilən nüfuzlu beynəlxalq konfrans iqlim dəyişiklikləri ilə mübarizə və bu sahədə mövcud problemlərin həlli istiqamətində dönüş nöqtəsi olacaq.

**Xumar MƏMMƏDOVA**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***












## Dünyanın COP29-dan böyük gözləntiləri var




***Azərbaycan bu günlərdə qlobal tədbirə ev sahibliyi edir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası bütün nəzərləri ölkəmizin üzərinə çevirib. Əslində, bu konfrans ekoloji bir tədbir olsa da, ölkəmiz üçün onun həm də böyük diplomatik əhəmiyyəti var.***

Baxmayaraq ki, dünyada gedən iqlim dəyişmələrində Azərbaycanın rolu kiçikdir, lakin özünün son illər "yaşıl enerji" sahəsindəki böyük layihələri ilə dövlətimiz bu fəsadların qarşısının almasına töhfəsini verir, sülh və yaşıl dünya naminə beynəlxalq arenada fəal rol oynayır. Təsadüfi deyil ki, ölkə başçısı cənab İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı Sərəncamda ölkəmizin sosial-iqtisadi inkişafına dair müəyyən edilmiş 5 prioritetdən biri də Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsidir. Bu prioritet yüksəkkeyfiyyətli ekoloji mühit və "yaşıl enerji" məkanının reallaşdırılmasına nail olmağı qarşıya məqsəd qoymuşdur. Bu məqsədə çatmaq üçün artıq bir çox işlər görülmüş, həmçinin Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan Muxtar Respublikası "yaşıl enerji zonası" elan olunmuşdur. Buna görə də COP29 məhz Azərbaycanda keçirilir. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi, bu, beynəlxalq ictimaiyyətin Azərbaycanın "yaşıl enerji" sahəsindəki fəaliyyətinə hörmətinin göstəricisidir.

Artıq bir neçə gündür davam edən COP29-da iqlim dəyişikliyinin səbəbləri və onların aradan qaldırılması istiqamətləri müzakirə olunur. İqlim dəyişiklikləri həyatın hər sahəsində özünü qabarıq şəkildə büruzə verir. Qlobal istiləşmə, anomal iqlim şəraiti, təbii fəlakətlər – daşqınlar, sellər, zəlzələlər, meşə yanğınları, canlılar aləminin məhvi, su mənbələrinin azalması həyəcan təbili çalmağın vaxtı olduğunu göstərir. Bütün bunlar dünyanın gələcəyini böyük bir təhlükə altında qoyur. Bu təhlükənin qarşısını almaq üçün ekoloji təmiz texnologiyaların tətbiqi, təkrar emal, yaşıllıqların salınması, çirklənmiş ərazilərin bərpası, alternativ enerji mənbələrindən istifadə vacibdir. Ona görə də dünya ölkələri bu qlobal tədbirdən çox şey gözləyir. Bu böyük tədbirin nəticəsi olaraq dünya ölkələri ətraf mühitin qorunması üçün birləşəcək, su ehtiyatlarının qorunması, ərzaq təhlükəsizliyi və bir çox digər qlobal problemlərin həlli yolları müəyyən ediləcək.

**Nuray ƏLİYEVA**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

## COP29 Azərbaycana qlobal diqqətin artmasına səbəb olacaq



BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi rəsmi bir tədbirə ev sahibliyinə layiq görülmək Azərbaycanımızın dünya ölkələri arasında günü-gündən artan nüfuzunun bariz nümunəsi, dövlət başçımızın uğurlu siyasətinin təntənəsidir! Dünya liderlərinin COP tədbirləri zamanı bir araya gəlmələri qlobal miqyasda baş verən dəyişikliklərin ətraf mühitə neqativ təsirlərinin, iqlim böhranlarının qarşısının alınmasının, qlobal orta səth temperaturunun 1,5 dərəcə selsidə saxlanılması məqsədi daşıyır.

Bu il Azərbaycanda keçirilən COP29 konfransı üçün ölkəmiz layiqincə hazır olduğunu hər sahədə təsdiqləyib və 196 ölkədən gələn 80 prezident, vitse-prezident, rəsmi nümayəndələr və tədbir iştirakçılarını yüksək səviyyədə qəbul edib. Möhtərəm Prezidentimiz işğaldan azad olmuş torpaqlarımızı "yaşıl enerji zonası" elan edib və bu sahədə Azərbaycan bərpa olunan enerji sahəsində qabaqcıl ölkələr sırasına yüksəlmək əzmindədir. Hazırda bərpa olunan enerji sahəsində texniki potensialımız, quruda 135 giqavat, dənizdə isə 157 giqavat təşkil edir. Dövlətimiz bu sahədə davamlı işlər həyata keçirir. Belə ki, ötən il BƏƏ-nin "Masdar" şirkəti Azərbaycanda 230 meqavatlıq günəş elektrik stansiyasının açılışını etdi. Hazırda isə Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti 240 meqavatlıq külək enerjisi stansiyasının inşasını reallaşdırır.

Azərbaycan 1990-cı illərlə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarını 35, 2050-ci ilə qədər isə 40 faiz azalmasını hədəfə alıb. Bu isə ölkəmizin ekoloji vəziyyətinin yaxşılaşmasına, havanın təmizliyinə, iqlim dəyişikliyi təsirlərinin azaldılmasına kömək olacaq. COP29 konfransının ölkəmizin iqtisadiyyatına da çox müsbət təsiri olacaq. Azərbaycana investisiyalar qoyulmasına, turizm sektorunun inkişafına, beynəlxalq əlaqələrin möhkəmlənməsinə, bir sözlə, Azərbaycana qlobal diqqətin artmasına səbəb olacaq. Dünya ictimaiyyəti xalqımızı, dövlətimizi daha yaxından tanıyacaq, onun tarixi və mədəniyyəti ilə tanış olacaqlar.

**Gülxarə TARVERDİYEVA**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

## COP29 həm də milli mədəniyyətimizin təbliğatçısıdır



Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 dekabr tarixli Sərəncamında da qeyd olunduğu kimi, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilməsidir. Ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin olunması, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji zonası" elan olunması məsələlərinin rəsmi problem kimi ortaya qoyulması COP29 tədbirinin ölkəmiz üçün böyük əhəmiyyətindən xəbər verir. Ölkəmizin ev sahibliyi etdiyi bu möhtəşəm tədbir çərçivəsində dünyanın hər yerindən gəlmiş qonaqlar iqlim dəyişikliyi və ekoloji problemlərin müzakirəsi ilə bağlı məsələlərlə yanaşı, zəngin milli mədəniyyətimizlə də tanış olurlar. Konfrans mədəniyyət və incəsənət tədbirləri iqlim dəyişikliyi, ekoloji problemlər və davamlılıq mövzularının ictimaiyyətə çatdırılmasında güclü bir vasitədir. Tədbirin bədii hissəsində təqdim olunan UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş Azərbaycan muğamı, milli rəqslərin təqdimatı, Azərbaycanın klassik bəstəkarlarının musiqilərindən ibarət simfonik çıxışlar, ekoloji mövzulu sənət sərgiləri, təbiət və iqlimlə əlaqəli teatr tamaşaları, milli mətbəximizin təqdimatı mədəniyyətimizi yüksək səviyyədə təmsil edib.

Tədbirdə təmsil olunan xarici ölkələrin nüfuzlu nümayəndələrinin kütləvi informasiya vasitələrindəki müsahibələrindən məlum olur ki, Azərbaycanımızın milli-mənəvi dəyərlərini əks etdirən müxtəlif çeşidli mədəniyyət tədbirləri, xalqımızın mədəniyyəti və mentaliteti haqqında onlarda gözəl təəssüratlar formalaşdırıb. Bu mənada, mədəni tədbirlər azərbaycanlı kimliyinin və qədim, köklü tarixə malik olan mədəniyyətimizin dünyaya çatdırılmasında əvəzsiz rol oynayır. Azərbaycanın zəngin mədəni irsi və müasir inkişafı COP29 çərçivəsində dünya ictimaiyyətinə həm milli, həm də qlobal dəyərləri bir araya gətirən nümunəvi bir platforma təqdim edir.

**Gülxarə ƏHMƏDOVA**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***



# COP29 Qlobal və milli hədəflər

Hələ ötən əsrin sonlarına doğru az qala hər gün nüvə sınaqlarından, kosmosa buraxılan raketlərdən və sınaqdan keçirilən digər ağır silahlardan yorğun düşmüş planetimizin sağlamdüşüncəli siyasətçiləri və iqlim araşdırmaçıları “gələcəksiz dünya” təhlükəsinin artıq qapıda olduğunu və bu təhlükədən heç kimin heç bir yerə qaça bilməyəcəyi nəticəsinə gəldiyində, bəlkə də, bu günə, yəni 2024-cü ilə qədər ötən dövrdə, əslində, çox şeyin də dəyişməyəcəyini, karbon tullantılı sənayeləşmənin törətdiyi ekoloji vəziyyətin daha da ağırlaşacağını düşünmürdülər. Güclülərin zəiflər hesabına daha da varlanmaq istəyi, aqressorun qonşu torpaqları hesabına öz ərazilərini genişləndirmə ambisiyaları, qlobal sərmayənin daha çox bazarlar tutma strategiyası və ən nəhayət, mavi planetin hər bir sakininin tükənmək bilməyən istehlak istəyi nəticəsində artıq ortaq evimiz öz əvvəlki görkəmindən xeyli uzaqlaşmış və əvvəlki yaşana bilən yaşıl Yer kürəsində buzlaqların sürətlə əridiyi və bunun da nəticəsində dünya okeanının səviyyəsinin yüksəldiyi, bunun əksinə, qapalı su hövzələrinin kiçildiyi, uzun sürən quraqlıqlarla paralel bir çox yerlərdə dağıdıcı leysan və daşqınların yaşandığı, hətta sahilyanı ölkələrin və şəhərlərin yer üzündən silinmə təhlükəsinin real olduğu bir dövrdə yaşayırıq. Texnoloji inkişafın səbəb olduğu iqlim dəyişikliyinə rəvac verənlərin öz məsuliyyətini başa düşməsi, tək bir ölkənin deyil, iqtisadiyyatı güclü olan ölkələr başda olmaqla bütün dünya birliyinin birgə səylərinin artırılması baxımından hazırda Azərbaycanın ev sahibliyi etdiyi iqlim dəyişikliyinə qarşı BMT Sammiti – COP29 öncəsi və gedişində hədəflər birmənalı olmayıb, qlobal və milli maraqlar prizmasından, necə deyərlər, hər kəsin öz keçmişinə və gələcək prioritetlərinə uyğun olaraq görünməkdədir.

Sənaye səbəbli iqlim dəyişikliyi artıq elmi olaraq sübut edilmiş və bir çox üsullarla dinamikası ölçülə bilən qlobal bir problemdir. Bütün digər qlobal problemlər kimi iqlim dəyişikliyinin də məhəlli deyil, planetar nəticələri də artıq göz qabağındadır. Elə COP29 və bundan əvvəlki iqlim sammitlərində vurğulandığı kimi, sənayecə inkişaf etmiş ölkələrin karbon tullantılarının səbəb olduğu istixana effekti və bunun da nəticəsində atmosfer temperaturunun normadan 1,5 dərəcə və daha artıq artması bir sıra ada dövlətlər üçün eksiztensial səviyyədə təhlükə yaradır. İqtisadi və sosial nəticələrə baxdıqda isə bu qlobal təhlükənin bütün dünya üzrə 38 trilyon dollarlıq iqtisadi zərərə və yüz milyonlarla insanın iqlim miqrantı kimi yaşamağa səbəb olacağı gözlənilir. Daha sonra isə zəncirvari proseslər kimi, qlobal iqlim dəyişikliyinin insanın əsas həyati təbii qaynaqlarının – suyun, oksigenin, qida maddələrinin sürətlə tükənməsinə gətirib çıxaracağını ən optimist futuroloqlar belə inkar edə bilmirlər. Başqa sözlə, belə getsə, bəşəriyyət hazırda özünün cəhənnəm həyatını yaşayan Marsı görmək üçün 225 milyon kilometr məsafəni qət etmək yerinə, sadəcə, 50 ildən sonra Yer kürəsindəki eyni mənzərələri seyr edə biləcək. Çünki hesablamalara görə, qlobal istilik artımı normasının 2,5 dərəcə və daha çox artımı nəticəsində Yer kürəsinin qarşısıalınmaz təbii fəlakətlərlə üz-üzə qalacağı qaçınılmazdır.

Qlobal istiləşməni və ya başqa bir ifadə ilə “gələcəksiz dünya” problemini törədən iqtisadi və texnoloji inkişaf bir tərəfdən insanların sosial maddi həyat səviyyəsini yüksəltdiyi halda, dayanıqlılıq prinsiplərinə əməl olunmaması və dolayısı ilə iqlim ədalətinin pozulması nəticəsində təbiət də öz qisasını elə sərt formada alır ki, nəticədə, bu ən son perspektivdə bütün ədalətsizlikləri törədənlər də daxil olmaqla hər kəsin öz mənfi nəsibini almasına səbəb olacaqdır. Ona görə də Azərbaycanın ev sahibliyi etdiyi və yüksək səviyyədə təşkilatçılığı ilə seçilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında qarşıya qoyulan hədəflər məhz qlobal iqtisadiyyatın karbon yükünün azaldılması, böyük ölkələrin bundan əvvəlki iqlim konfranslarında bu istiqamətdə üzərlərinə götürdüyü öhdəliklərin yerinə yetirməsini, siyasi maraqlardan daha çox planetar maraqların güdülməsini, tərəflərin maliyyə məsələlərində inkluziv yanaşma prinsipinə əməl etməsini, başqa sözlə, yaşıl planet üçün hər kəsin müsbət töhfə verməsini əhatə edir. Odur ki, 196 ölkədən 72 min iştirakçının qatıldığı, 80 ölkənin ali rəhbərinin iştirak etdiyi COP29-da verilən mesajlar artıq gözləməyə vaxt olmadığını, bir an öncə kiçik ambisiyalardan əl çəkib qlobal evimiz sayılan Yer kürəsinin gələcəkdə daha yaşana bilmək ehtimalı üzərində olduğunu deyir. Sayı 80 minə də çatmayan erməni separatçılarının vandalizm marağını 8 milyard planet əhalisinin gələcəyindən üstün tutaraq BMT Sammitinə belə qatılmayan Fransadan fərqli olaraq rəsmi Bakı bu dünyada hər kəsin yaşamaq hüququnun olduğunu, xüsusən yüz illər boyu müstəmləkə əsarətində qalmış və hazırda da bu çirkin hüquq pozuntusundan əziyyət çəkən kiçik ada və sahilyanı dövlətlərin haqlarının təmin olunması, buradakı insanların, sadəcə, həyatda qalması üçün təbii şəraitin qorunub saxlanılmasını vurğulayır, bunun üçün əməli işlərə öncüllük edir. Başda ABŞ, Çin, Rusiya, Hindistan, Yaponiya, Almaniya, Fransa olmaqla bütün sənayeləşmiş ölkələrin iqtisadiyyatını karbonsuzlaşdırması, qlobal iqtisadiyyatda yaşıl texnologiyanın tətbiqi, bunun üçün mövcud enerji sektorunun strukturunda alternativ mənbələrin payının artırılması razılığına gəlmək bu konfransda qarşıya qoyulmuş əsas hədəflərdəndir.

Problemin dərk olunması, onun gələcəkdəki nəticələrinin proqnoz edilməsi baxımından yuxarıda adları qeyd olunan ölkələr hamıdan qabaq “yaşıl keçid” məzmunlu pafoslu tezislər səsləndirsələr də, işin maliyyə tərəfinə gəldikdə məsuliyyətsizcə sanki bunun üçün ilk olaraq inkişaf etməkdə olan və yaxud da kiçik ada dövlətlərinin məsuliyyət daşıdığını düşünür, sadəcə, oyunpozanlıq edirlər. Əslində, məqsədləri də aydındır: trilyonlarla dollar qazandığı silah istehsalı ilə dünyanı barıt çəlləyinə çevirmiş ABŞ, çoxşaxəli sənayesi ilə “dünyanın fabriki” halına gəlmiş və bununla da karbon tullantıları ilə havanı lap çox çirkləndirən Çin, həm tullantılı sənayesi, həm də kənd təsərrüfatı tullantılarının yandırılması ilə mənfi mənada ad çıxarmış çirkli ölkə Hindistan və digər bələləri yaşıl keçidə inad etmək və ya onu yubatmaqla mövcud qazanclarını itirmək istəmirlər. Başqa sözlə, dünyanın iki hərbi gücü – ABŞ və Rusiya gələcəkdə elektriklə işləyə biləcək qırıcı təyyarə və ya tanklar istehsalı üzərində düşünmək istəmədiyi kimi Çin və Hindistan da yüksək karbon tutumlu plastiklərin emalı və yüz minlərlə adda məhsul istehsalını heç bir şeylə dəyişmək istəmir, maraqların toqquşmasına səbəb olurlar. Elə COP29-un Liderlər Sammitinin açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də vurğuladığı kimi Azərbaycan torpaqlarımızın işğalını pisləyən, lakin uzun illər kağız üzərində qalmış BMT qərarlarını özü icra edib tarixi ədaləti bərpa etdiyi kimi iqlim dəyişikliyinə qarşı birgə mübarizədə də fərqli mühüm iştirakçılar arasında körpülərin salınmasında çox faydalı və yardımçı ola bilər. Bu çox mühümdür və görünən odur ki, bu hədəflərə doğru hələ çox işləmək, böyük dövlətlər nazı ilə çox oynamaq lazım gələcək.

Böyük dövlətlər öz işlərində olsun, amma planetin çox kiçik bir parçası olan Azərbaycanın istər COP29 öncəsi, istər onun keçirilmə dövrü, istərsə də 2050-ci il və daha sonrası üçün hamıya açıq və dəqiq vizyonu vardır: hər kəs üçün ədalət və Yaşıl dünya! Bu, bəlkə də, Ermənistan tərəfdən törədilmiş ekoloji terrordan hamıdan çox əziyyət çəkmiş, amma xalqının və dövlət başçısının iradəsi ilə sahib olduğu karbohidrogen resurslarını qısa müddətdə “yaşıl resurslara” çevirmək hədəfini qarşıya qoymuş ölkəmizin bu qlobal iqlim sammitində dünyaya verəcəyi ən qısa və ən doğru mesajdır. Azərbaycan bu hədəflərə doğru irəlilədikcə qarşıdakı dövrdə bütün ölkəmizin karbondan azad, neytral ərazi olacağına çatmaq əzmindədir. Özünün sahib olduğu “yaşıl enerji” potensialının reallaşdırılması ilə yanaşı, gələcəkdə Orta Asiyadan da Avropaya ixrac olunacaq ekoloji təmiz enerjinin tranziti ilə birgə Azərbaycanın hədəfi Qarabağ, Şərqi Zəngəzur, Naxçıvan, bir sözlə, ölkəmizin hər yerində “yaşıl iqtisadiyyatın” bərqərar olmasıdır. COP29-dan əldə olunacaq təcrübə ilə kimsənin mövqeyindən və təzyiqindən asılı olmayaraq, Azərbaycan bu gün olduğu kimi, gələcəkdə də qlobal çağırışlara öncüllük edən bir ölkə olacaq, dünya arenasındakı müstəqil siyasət gücünü qoruyub saxlayacaq.

Əli CABBAROV




# 100 ilin qəhrəmanları

***"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Naxçıvan şəhərinin Tumbul kəndindən olan şəhidimiz Seymur İbrahimovun anası Tacirə Səfərovanın, Tumbul kəndindən olan şəhidimiz Araz Məmmədovun anası Xeyrənsə Məmmədovanın və Naxçıvan şəhərindən olan şəhidimiz Xansu Qurbanovun anası Yəmən Abbasovanın övladları haqqında xatirələri yer alıb.***

## Seymur Zamin oğlu İbrahimov

*(20.10.2000-01.11.2020)*

## Şəhid olmağı özünə şərəf bildi





Seymur sakit uşaq olub. Həm də çox mehriban xasiyyəti var idi. Hərbi xidmətdən sonra hərbçi olmaq qərarına gəlmişdi. Hərbi xidmətdə təlimlərə ciddi maraq göstərirmiş. Milli Qəhrəman Mübariz İbrahimov şəhadətə ucaldıqdan sonra Seymurun arzusu ancaq onun keçdiyi yolu getmək idi. Mübarizin şəkillərinə baxır, haqqında məlumatlar oxuyurdu. Seymurun atası da hərbçi olub. Tez-tez ondan nələrsə soruşardı. Ürəyini qoymuşdu Vətən yolunda. Mübariz İbrahimovla eyni soyadda olduqları üçün çox qürur hissi keçirirdi. Deyirdi, bir gün arzuma çataram, Mübarizə salam verərəm.  Elə bu səbəblər idi onu hərbçi olmağa vadar edən. Cəmi 8 ay hərbidə xidmət etdi. Sonra müharibə başladı və döyüşlərə getdi. Müharibədən qabaq da evə gəlmirdi. Çünki təlimlərdə iştirak edirdi. Bilmirdik müharibə olacaq. Amma elə gətirdi ki, təlimlərdən döyüşlərə yollanmalı oldu. Seymurun deyib-gülməklə çox da arası olmazdı. İçinə qapanıq idi. Hər sözə cavab verməzdi. Məktəb vaxtında da xarakterinə, tərbiyəsinə, mədəniyyətinə görə seçilirdi. Davranışlarına görə evdə də, qohum-əqrəbada da hörmət qazanmışdı. Özündən böyük olan hər kəsə də etina ilə yanaşardı. Seymur  ailə qurmamışdı. Onun üçün arzularımız vardı. Müharibə ərəfəsi 4 dəfə telefon danışığımız oldu. İmkan olanda özü zəng edirdi. 20 yaşı da müharibədə tamam oldu. Həmin gün bizə zəng etmişdi. Bir də onun sabahı günü, ayın 21-i zəng etdi. Ondan sonra əlaqəmiz kəsildi. Bir neçə gün sonra yenidən zəng vurmuşdu. Axırıncı danışığımız da ayın 24-ü olmuşdu. Danışanda da təskinlik verirdi ki, narahat olmayaq. Həmişə yaxşı olduğunu, hər şeyin yaxşı olacağını deyirdi. Razılıqla danışırdı.  Bu danışıqdan sonra əlaqəmiz tamamilə kəsildi. Gözümüz telefonda qaldı, zəng gəlmədi... Həddindən çox narahat idik. Necə olmayaydıq? Çünki aradabir danışırdıq, artıq o da kəsilmişdi. Ayın biri şəhid olsa da, bizə ayın 3-ü xəbər verdilər.  Şəhid olmağı hər zaman özünə şərəf bilirdi. Bu gün qəhrəman Seymurun adını qardaşının oğlu daşıyır.



## Araz Qəhrəman oğlu Məmmədov

*(16.07.1997-09.11.2020)*

## Qəhrəmancasına döyüşüb şəhid oldu





Araz 3 qardaşdan sonra evin sonbeşiyi idi. Həmişə şəkil çəkdirəndən sonra deyirdi, ana, bir gün bu şəkillər sənə lazım olacaq. İndi gözüm önündə o şəkillər dağ kimi dayanıb. Araz çox vətənpərvər idi. Daxilində qisas hissi başləmişdi. Çünki erməni vandalları tərəfindən xalqımızın başına gətirilənləri bilirdi.

Qız-gəlinlərimizin yaşadığı faciələr onun qüruruna toxunmuşdu. Bu səbəbdən də hər dəfə özünə söz verirdi ki, düşməndən qisas alacaq. Hərbi xidməti başa vurduqdan sonra hərbçi oldu. Peşəsini də sevirdi. Araz belə bir igid oğul idi. Müharibəyə gedəcəyini də bizə bildirmədi. Ancaq yola çıxdığı gün dedi ki, ana, mənlə görüşmürsən? Dedim ki, bala, hara gedirsən? Demədi. Qardaşı aparıb aeroportdan yola salmışdı. Axşamçağı idi, zəng etdi ki, ana, aeroportdayam. Dedim, orada nə edirsən? Dedi, könüllü müharibəyə gedirəm. Getdi və cəsarətlə döyüşdü.Yoldaşlarına nümunə oldu. Hətta döyüşlərdə qolundan yaralansa da, geri çəkilməmişdi. Döyüş yoldaşları onun əzm və şücaətindən həmişə danışırlar. Noyabr ayının 8-i zəng etmişdi. Dedi ki, ana, özünüzdən muğayat olun. Bir müddət zəng vurmayacağam. Telefon burada işləmir, dağlardayıq... Noyabrın 9-u şəhid olub. Sonradan onun şəkillərini qazi yoldaşları gətirdilər. Necə ürəklə döyüşdüyündən ağızdolusu danışırlar. Bir an belə gözlərini qırpmırmış. Bir ana kimi mən Arazla fəxr edirəm. Onun adı gələndə qürurlanıram. Ürəyim fərəh hissi ilə dolub-daşır ki, belə bir igid qəhrəmanın anasıyam. Bu gün bizim üçrəngli bayrağımız qəhrəman oğullarımızın sayəsində Vətən səmalarında dalğalanır. Hər dəfə o bayrağa baxanda şəhidlərimizin ruhlarının şad olduğunu düşünürəm. Çünki onlar torpaqlarımız, Vətənimiz üçün döyüşdülər. Əziz canlarından keçsələr də, Vətənin bir qarışını düşmən tapdağında qoymadılar. Onlar razı olmadılar ki, ən qiymətli sərvət, ata-baba əmanəti olan torpaqlarımızda vandallar at oynatsınlar. Araz mənə bir vaxt necə deyirdisə ki, ana, şəkillərim sənə bir gün lazım olacaq, bu gün o şəkillərə fəxrlə baxıram. Mənim qəhrəman oğlum şərəfli yolu şərəflə getdi. Şəhid adını da şərəflə aldı. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Ruhları şad olsun!



## Xansu Elsevər oğlu Qurbanov

*(23.09.2000-09.11.2020)*

## Vətəninə, torpağına bağlı idi





Xansu ailədə 2 bacının tək qardaşı olub. Bacılarına qarşı çox mehriban idi. Ailəcanlı, qayğıkeş oğuluydu. Uşaqlıqdan zəhmətsevər böyümüşdü. Bacılarını oxutmaq ən böyük arzusu idi. Uşaqlıqdan vətənpərvər olduğu bilinirdi. Bayrağa, torpağa olan sevgisi həmişə diqqətimizi çəkirdi. Qarabağın azad olunması arzusu ilə qəlbi döyünürdü. Əminliklə deyirdi, Qarabağı azad edəcəyik. Heç müharibə söhbəti olmadan da deyirdi ki, bir gün silahlanıb düşmən üzərinə gedəcəyəm. Deyirdim ki, çalışacağı hər bir işdə nizam-intizam qaydalarına əməl etsin. O, kəşfiyyatda snayperçi imiş. Bunları mən bilmirdim. Deyirdi, ana, bizim Ali Baş Komandanımız var. Bir gün onun əmr və tapşırığı ilə döyüşə gedəcəyik. O zaman mən arzuma çatacağam. Əli ilə, hərəkətlərlə göstərirdi. O an mənim hələ də gözüm önündədir. Müharibəyə də gedəndə fəxrlə getdi. Gülə-gülə getdi... Mən qəhrəman oğul böyütmüşdüm Vətən üçün. O qəhrəman oğulu Vətənə də verdim.  Xansu ilə döyüşdə olan yoldaşları onun qəhrəmanlığından danışırlar. Belə oğullarımızın göstərdiyi şücaətin nəticəsində torpaqlarımız işğaldan azad olundu. Alnımızın ləkəsi də qəhrəman oğullarımızın sayəsində silindi. Onların, elə bütün xalqımızın arzusu bu deyildimi? Ona görə də ürəkli oğullarımızın sayəsində alnıaçıq, başımız dikdir. Ali Baş Komandanımız da Şuşada olarkən bizim oğulları Şuşa fatehləri adlandırdı. Bu gün fəxr edirəm ki, mənim qəhrəman oğlum Xansu da Şuşa fatehidir. Ana kimi ürəyim fəxrlə döyünür ki, oğlum qəhrəmanlıq edib. Onların döyüşdüyü yerlərdə olmuşam. Hətta Şuşada həmin qayalıqları da görmüşəm. Adam dəhşətə gəlir o sıldırım qayalıqlara baxanda. Amma bizim qeyrətli oğullarımız qorxmadan, igidliklə düşmən üzərinə irəlilədilər. Onlar bilirdilər ki, düşmənə qalib gələcəklər. Bu əminlik Vətənə olan məhəbbətdən yoğrulmuşdu. O torpaqlar indi bizim üçün daha müqəddəsdir. Çünki balalarımızın qanı-canı bahasına azad olunub. Xansunun arzuları yarımçıq qalsa da, əsas arzusu Qarabağı azad görmək idi. İşğaldan azad olan torpaqlarımızda Xansunun da ayaq izləri var. Əminik ki, gələcək nəsillər də belə qəhrəman oğullarımızın ayaq izləri ilə gedəcəklər. O izlərə ayaq basdıqca Vətənimiz daim var olacaq. Bizim hər birimizin borcu bu Vətəni şərəfimizlə qorumaqdır. O zaman şəhidlərimizin də ruhu şad olar.



# Bura mərdlik, qeyrət qalasıdır Naxçıvanın

Azərbaycanın döyünən ürəyi qədim Naxçıvanda bir yurd yeri var. Sıx meşələri, gur axan bulaqları, səsli-küylü çayları yoxdur, amma bu bir ovuc torpağı canından çox sevən insanları var bu qədim yurdun. Rayona ilk addımı atanda yolboyu sıralanan fotolardan baxan gənc üzləri görənlər bilirlər buranın Qeyrət qalası olduğunu. Bəli, bura həmin yerdir. Ulu Öndərin "Qeyrət qalası" adlandırdığı yer. Torpağın hər qarışı qanla sulanan yer. 1990-cı ilin soyuq qış gecəsinə kimi sakit bir həyat sürürdü burada insanlar.



İstixanalarda yetişdirilən qərənfillərin sorağı uzaq diyarlardan gəlir, Sədərək üzümü insanların qazancını qat-qat artırır, Şirarxının bol suyu əkinbacalara həyat verirdi. Ta ki həmin soyuq qış gecəsinə kimi. Gecə yarısı uşaq, böyük atəş səsinə yuxudan oyandığı həmin gecə həm dəhşət gecəsi, həm də qəhrəmanlıq dastanının yazılmağa başladığı gecə idi.

Həmin gecədən sonra dünya bir xalqın qəhrəmanlığının şahidi oldu. Soyuq səngərlərdə Vətəni üçün canından keçən əliyalın döyüşən oğulların qəhrəmanlığını gördü. Sədərək kəndi düşmənin mərmi yağışına tuş gəldiyi həmin günlərdə qış da sanki öz məharətini göstərirdi. Qarın dizə çıxdığı qış gecələrində mavi yanacaq olmadan çıraq işığında müharibədən də çətin bir sınaqla üzləşmişdi hər kəs – aclıqla... Güllə səsindən qorxuya düşüb anasının qucağına sığınan körpələri isitməyə bir odun, ocaq tapa bilməyən azərbaycanlı qadını bir tikə çörək tapanda onun yarısını səngərdəki əsgərə göndərib, yarısı ilə uşağını doyurub özü ac yatırdı. Qışın soyuq günlərində evindən, ocağından didərgin düşən sədərəklilər Dəmirçi kəndi ilə Sədərək kəndi arasındakı "Dəhnə" adlanan dərədə soyuq çadırlarda yaşamaq uğrunda mübarizə aparırdı. Sədərək dağlarında düşmənə sinə gərən oğullar isə canını Vətənə qurban verir, amma geri çəkilmirdi.

Sanki dünya da kar olmuşdu həmin günlərdə, heç kim eşitmirdi səsimizi. Naxçıvanın hər yerindən gələn oğullar Sədərəyi ov gülləsi ilə müdafiə edir, heç kim bir addım da geri çəkilmirdi. Yaşamaq və torpaq uğrunda mübarizədəki əzmi dillərə dastan oldu Sədərəyin. Ulu Öndərin Naxçıvana qayıtdığı ilk günlərdə Sədərəkdə səngərdə döyüşən oğulları, Dəhnədə çadırlarda yaşayan sakinləri ziyarət etməsi səngərdəki əsgərə də, çadırda yaşayan insanlara da güc verdi. Hamı inanırdı, hamı əmin idi ki, Heydər Əliyev xalqı bütün çətinliklərdən xilas edəcək. Onun gəlişi soyuqdan buz kəsmiş insanları isitdi, ov gülləsi ilə düşmən tankının qarşısına çıxan döyüşçüyə güc verdi. Xalqımızın haqq səsini dünyaya duyuran Ümummilli Lider Sədərək rayonunun yaradılması üçün addımlar atdı. Erməni terrorunun qarşısını aldı. Ulu Öndərin qətiyyəti düşməni susdurdu. Həmin illərdə Sədərək dağlarında məğlub olan düşmən 44 günlük Vətən müharibəsində bu istiqamətdə bir güllə belə atmağa cəsarət etmədi.

Bu gün beş addımda dayanan düşmənin gözü önündə çiçəklənir yurdumuz. Heydərabad qəsəbəsində açan çiçəkləri, gözəl mənzilləri, Sədərək kəndində alın tərini torpağa qatıb ruzi qazanan insanları görəndə, Qaraağac kənd tam orta məktəbindən gələn uşaq səslərini eşidəndə bir daha əmin oluruq ki, bu xalq bir ovuc küldən əzəmətli abidə yaradabiləcək gücdədir. Bu xalq kiçik bir kənddən böyük bir qəhrəmanlıq dastanı yazıb, bu Vətənin bir ovuc torpağının tonlarla qızıldan qiymətli olduğunu sübuta yetirəcək əzmdədir. Bu gün buradan yolu keçən hər kəs rayonun girişində və düşmənlə üz-üzə dayanan postlarımızda qürurla dalğalanan Azərbaycan Bayrağına baxanda Vətənin əziz oğullarını ehtiramla yad edir. Və deyir ki, qədim Oğuz yurdu, Azərbaycanın Avropaya açılan qala qapısı, türk xalqlarını birləşdirən "Ümid" körpüsü, qeyrət qalası Sədərək necə ki igid oğulların var, necə ki torpağı qoruduqları kimi əkibbecərməyi də bacaran insanların var hələ sən yüz illər bundan sonra da yaşayacaqsan. Naxçıvanın qəhrəmanlıq rəmzi, qeyrət qalası, alınmaz səddi olacaqsan.

**Ramiyə ƏKBƏROVA**






## Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının yaranmasının 57 illiyi qeyd edilib

Noyabrın 16-da Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının yaranmasının növbəti ildönümü münasibətilə tədbir keçirilib.

Əvvəlcə şuranın kollektivi Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb, əziz xatirəsini ehtiramla yad edib, sonra Heydər Əliyev Muzeyində Ümummilli Liderin həyat və fəaliyyətinə aid fotoşəkil və eksponatlarla tanış olub. Kollektivə Ulu Öndərin hər kəsə örnək olan çoxşaxəli siyasi fəaliyyəti, o cümlədən həyatının Naxçıvan mərhələsi haqqında ətraflı məlumat verilib.

Daha sonra tədbir şuranın inzibati binasında davam etdirilib. Tədbiri giriş sözü ilə açan AHİK sədrinin müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev AHİK sədri Sahib Məmmədovun Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasına əlamətdar gün münasibətilə ünvanladığı təbrik məktubunu səsləndirib. Şura sədri çıxışında bildirib ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının ayrılmaz tərkib hissəsi kimi fəaliyyət göstərən şura yarandığı vaxtdan bu günədək vətəndaşların hüquqlarının müdafiəçisi kimi sosial problemlərinin həlli və əmək hüquqlarının təmin olunması sahəsində ardıcıl və məqsədyönlü fəaliyyət göstərir.

Vurğulanıb ki, şura bundan sonra da fəaliyyətini Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının tələblərinə uyğun quracaq, ittifaq üzvlərinin hüquq və mənafelərini müdafiə etməyə çalışacaq və muxtar respublikanın inkişafına öz töhfəsini verəcək.



Digər çıxış edənlər Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının keçdiyi tarixi inkişaf yolu və həyata keçirilən əhəmiyyətli tədbirlər haqqında məlumat veriblər.

Sonra Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında həmkarlar ittifaqı fəallarının mükafatlandırılma mərasimi olub. Şuranın 11 nəfər həmkarlar ittifaqı fəalı AHİK-in Fəxri Fərmanı, 19 nəfər fəal isə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının Fəxri Fərmanı ilə təltif olunublar.

Sonda Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının ötən dövr ərzindəki fəaliyyətini əks etdirən videoçarxa baxış olub.

# İnsan olmaq

*Yaşadığımız dünya yaxşılığın və pisliyin bağçasıdır. Burada hər şey ola bilər. Bura çox qəribə yerdir. Bu dünyada isə Tanrı tərəfindən "yaradılmışların əşrəfi" olaraq xəlq edilən, Onun yaratdığı "ən mükəmməl əsər" olaraq təyinlənən, şüurlu varlıqların ən alisi olaraq dəyərləndirilən İNSAN olmaqdır ən çətini. Mövlana Cəlaləddin Rumi insan olmağın mürəkkəbliyini, möhtəşəmliyini, çətinliyini və bəlkə də, acizliyini özünəməxsus şəkildə belə ifadə edirdi: "Biz elə bir məxluqlarıq ki, bəzən mələklər insan olmadıqlarına görə kədərlənir, bəzən də şeytanlar insan olmadıqlarına görə şükür edirlər".*



Yunan fəlsəfəsinə görə, insan hər şeyin ölçüsüdür. Özünü dərk edən insan hər şeyi dərk edə bilər. 2500 ildir ki, bəşər övladı yunan filosofu Sokratın "Delfiyanın Daş məbədi"nə həkk etdirdiyi "Ey insan! Özünü dərk et, özünü dərk etsən, varlığı dərk edərsən" kəlamını yerinə yetirməyə, özünü, dünyasını dərk etməyə can atır.

Müasir cəmiyyətlər özləri ilə özünəməxsus bir fenomen gətiriblər. İnsan əvvəlkindən daha çox insanla daha qısa, daha səthi münasibətlərə meyillidir. İnsan olmağın ən çətin tərəflərindən biri də budur, yəqin ki, düzgün münasibətlər qura bilmək, münasibətləri tarazlıqda saxlaya bilmək.

Hər insan bir hekayə, hər insan bitməyən bir mübarizədir. O hekayənin, o mübarizənin sonunda isə final həmişə eynidir. Məmməd Arazın "Bəlkə, bu yerlərə bir də gəlmədim" misrası isə həmin finaldakı insan olmağın nisgilini, kədərini və bəzən ümidsizliyini ən yaxşı şəkildə ifadə edib. Ən xoş günün içində, ən xoşbəxt anın hüdudunda kədərini də xatırlaya bilmək. İnsan olmaq da elə bu deyilmi?

"Həyat çoxun da şirin, həyat azın da şirin. Səni mənalandıran o keşməkeşlərindir", – deyərək Bəxtiyar Vahabzadə insan olmağın çətinliyinin həyatımıza qatdığı rənglərdən bəhs edirdi. Çətindir insan olmaq. Doğruluq, dürüstlük istər. Yaxşılıq, gözəllik istər. Səmimiyyət, vicdan istər, təvazökarlıq istər... Əsas o deyil ki, insan necə ölür, əsas odur ki, insan necə yaşayır.



"Gedən başqasını tapar, qalan özünü", – deyə bir fikir oxumuşdum. İnsan olmaq həqiqətənmi sənə dəyər verənləri, əzizlərini yarı yolda qoyub getməkdir? Yoxsa insan olmaq yarı yolda qoyulsan belə sənə arxa çevirib gedənə arxa çevirməməkdir? Bəlkə də, sənin ona arxa çevirib getməyəcəyinə əminlik yaratdığın insanların sənə qarşı duyduğu güvən, sevgi və dostluğu ruhunun dərinliklərinə qədər hiss etməkdir insan olmaq. Ya da insan olmaq hər dəfə yarı yolda qoyulsan da, yenə də güvənə bilmək, inana bilmək və sevə bilməkdir...

İnsan həm də heç kəsə bənzəməyən, özünəbənzər bir varlıqdır, fərddir. Onun öz istəyi, öz düşüncəsi, ürəyi var. Biz bu ürəyi yalnız gözəl hisslərlə doldurmağa qadir deyilik. Ruhun da istədikləri var; düşünmək, sevinmək, şənlənmək, hətta kədərlənmək, lovğalanmaq və sair.



Göründüyü qədər, yaxud da kəlmələrə sığışdırdığımız qədər asan deyil insan olmaq. Çünki bu, hər şeyin subyektiv olduğu bir dünyadır. Hər kəs özünü itirib səni günahlandıranda soyuqqanlılığını saxlaya bilsən, hamı səndən şübhələnəndə sən özünə güvənib bütün şübhələri tolerantlıqla qarşılaya bilsən, əgər səbirlə gözləyib və gözləməkdən yorulmasan, ya da sən böhtanla üzləşəndə yalana yalanla qarşılıq verməsən və kin tutana kin duymasan onda insansan. Çünki sevgi və dürüst inanc insanları bir-birinə yaxınlaşdırır. İnsanları uzaqlaşdıran isə ayrı-seçkilik, mühakimə və qərəzdir.

Dünyada ən yaxşı kimi tanıyırıq? Özümüzü, təbii ki, ya da belə zənn edirik. Bizdən bir başqası daha varmı? Qətiyyən yox. Düşüncələri, davranışı bənzər olanlar ola bilər, təbii ki, amma tamamilə eyni olanı yoxdur. Məsələn, bizim qırmızıya yanaşma tərzimiz hər kəslə eynidirmi? Deyil. Ağaca, suya, daşa, torpağa, havaya? Yox. Birini – bir insanı itirəndə, əslində, bir dünyanı itiririk. Gedənlər geri gəlmir və yerləri dolmur. Çünki insanlar gedərkən özləri ilə böyük bir dünya aparırlar.

Hər insan bir dünyadır. Hər dünyanın öz qanunları, öz insanları var. Bir insanın içində olan başqaları onun təxəyyülünün məhsuludur. Real həyatda sevdiklərimizin bir obrazı var öz dünyamızda. Bir yaşlının içində bəzən bir uşaq, bir uşağın içində yaşlı bir insan yaşar. İnsan olmaq uşaqlığından yaşlılığına daşıdığın bir mesajdır. Yolda bu mesajı itirməməyə diqqət et. Bəlkə də, həyatın mənası o mesajın itməməsini təmin etməkdir. Qəlblər bunu yaxşı bilər. Bu cür yaşamda hökm ürəyin, tabeçilik isə ağılın olar.



Hər bir fərd təkrarolunmazdır, məna axtaran və məna yaradandır və özünü tapmaq üçün saysız-hesabsız güclü tərəfləri vardır. İnsan var dərya kimidir, baş vurdunsa, çıxmaq çətindir; insan var ki, divar kimidir, qarşında durur və heç nə görə bilmirsən; insan var ki, şüşə kimidir – dünyanı sənə göstərməyə çalışır; insan var ki, ayna kimidir, səni özünə göstərməyə çalışır.

Uzun bir ayrılıqdır insanoğlu. Qəlbi öz yalnızlığına gömülmüş. Dünəni, bu günü, gələcəyi və bunun içində dünən yaşadıqları, bu gün etməyə çalışdıqları və gələcək üçün arzularıdır insanı insan olaraq var edən. Bu varlığın içində insanın ən çətin mübarizəsi özü ilə olan mübarizəsidir, özü ola bilmək mübarizəsi, insan olmaq mübarizəsi.

Bədii ədəbiyyatın, söz sənətinin bütün zamanlar boyu dəyişməz



mövzusu, əsas predmeti insan olub. Bəxtiyar Vahabzadə ideal bir şəkildə bu mövzuya yekun vurur:

*İnsan! Təpədən dırnağa*
*sən arzu, diləksən,*
*Nəfsində doyumsuz,*
*fəqət eşqində mələksən...*

Yəqin ki, elə insan olmaq da budur: yaxşı ilə pisin arasındakı incə bir cizginin üstündə müvazinətlə addımlamağa çalışmaq. O tarazlığı qorumaq, yaxşıya doğru əyilmək və pisdən uzaqlaşmağa çalışmaq.

İnsan olmaq nədir? Ruhumuzun yarım olmamağı. Əbu Turxan bu barədə deyirdi: "İnsan bədəni dünyanın, kainatın bir zərrəsi olduğu halda, insan ruhu dünyanı, kainatı ehtiva etmək qüdrətindədir! Kainatın insan dünyasında tutduğu yer bəzən insanın kainatda tutduğu yerdən də kiçik olur". Buna görə də ruhumuz yarım olmasın, əlimiz-ayağımız onsuz da torpaq olacaq. Sizinlə sevinən, sizinlə ağlayan, dərdinizi yük edən, sirrinizi sirr bilənləriniz çox olsun. Yeridiyiniz yollar yaxşı insanlara çıxsın.

**Məmməd BABAYEV**

# Universitet dəhlizlərindən rəngarəng dünyaya...

Sizə elə bir ixtisasdan danışacağam ki, Naxçıvan Dövlət Universitetində bu ixtisasın tədris olunduğu binanın sinif otaqları və dəhlizləri sanki universitetdən daha çox nağıllar aləmini xatırladır... Ali təhsil ocağının Texnologiya müəllimliyi ixtisasının binasındakı dəhlizlərə daxil olarkən gah gözüm dəhlizboyu təşkil edilmiş sərgilərə, gah da divarlardakı müxtəlif əsərlərə sataşır... İbtidai sinif, məktəbəqədər və texnologiya kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Mətanət Quliyeva ilə sinif otaqları və dəhlizlərdə təşkil edilmiş sərgi-satış ilə tanış oluram. Müsahibim buranın necə ərsəyə gəlməsinin tarixçəsindən danışır.

Kafedrada müxtəlif semestrlər ərzində toxuculuq, tikiş dərsləri və başqa seçmə fənlər tədris olunur. Eyni zamanda müxtəlif sahələri əhatə edən sertifikasiya kursları da fəaliyyət göstərir. Kafedra daxilində yerləşən mətbəxdə isə müxtəlif qidalar hazırlanır. Artıq qış üçün qovurma, müxtəlif mürəbbələr və başqa qidaların hazırlanmasına başlanılıb. Onu da qeyd etmək lazımdır ki, bu qidaların satışları da həyata keçirilir. Burada hazırlanan qidalar universitetə gələn qonaqlara da hədiyyə olunur. Bunun nəticəsində Azərbaycanın müxtəlif bölgələrinin və Naxçıvan mətbəxinin ləziz təamları xarici qonaqlara tanıdılır. Xarici tələbələrlə də mətbəx mübadilələri həyata keçirilməyə başlanılıb. Xarici tələbələr də, öz növbəsində, qarşılıqlı olaraq Çin və Nigeriya mətbəxindəki müxtəlif təamları bizim tələbələrə tanıdır.





Burada olan rəngarənglik və inkişaf da məhz elə Mətanət müəllimin adı ilə bağlıdır. Hər bir tələbənin, eyni zamanda öz büdcəsinin ola biləcəyini öyrədir bu kafedra. Bəzən bu ixtisasa əmək müəllimliyi adı altında çox insan səthi baxır. Amma demək lazımdır ki, bu ixtisas təkcə əmək müəllimliyi deyil, incəsənətin bir qoludur. Burada orta məktəb şagirdlərinin könüllü fəaliyyətləri də baş tutur. Hətta öyrəndiyimizə görə, 7-ci sinif şagirdlərindən birinin panel sərgisi həyata keçirilib.





Mətanət müəllim qeyd edir ki, bəzi tələbələr, hətta bu sahədə çalışa-çalışa özünə telefon və kompüter almağı bacarıb... İmkansız insan yoxdur, tənbəl insan var... Bütün dünya təcrübəsində də uşaq sahibkarlar mövcuddur...

"Qərbi Azərbaycana qayıdış" festivalında iştirak edən qonaqlar Mətanət müəllimin və tələbələrinin hazırladıqlarını sənət əsəri adlandırmışdılar. Sərgilərə hazırlanıb çıxarılan həmin şirniyyatlar və yeməklər Azərbaycan mətbəx nümunələrinin bizim olduğunu bir daha təsdiqləyən sübutlardır.





Dəhlizlərdə yerləşən quramalar, mozaikalar, müxtəlif oyuncaqlar və bəzək əşyaları sərgi masaları və divarların bəzəyinə çevrilib. Keçədən işlənən Qərbi Azərbaycan və Naxçıvana aid əsərlər, mozaikalarla işlənmiş Ulu Öndər Heydər Əliyevin və akademik Zərifə Əliyevanın portretləri və sair...

Dəmirdən hazırlanmış saatlar, şüşə qablar üzərinə vurulan bəzəklər, taxtadan düzəldilmiş Naxçıvanın müxtəlif muzeylərinin və tarixi abidələrinin maketlərini əks etdirən tələbələrin əl işləri...

Ən əsası isə dəhlizlərə daxil olarkən qalxan pilləkənlərdə şəhidlərin fotolarının yer aldığı ağacın olduğu guşə.

Bir otağa daxil olarkən bir aləmə, digər bir otağa daxil olarkən başqa bir nağıllarla dolu aləmə səyahət edirsən... Bu elə bir aləmdir ki, hər masasında bir tələbənin gözünün nurunu qoyduğu əsərlər və bu əsərlərə fərəhlə baxan müəllimlərin baxışları dolaşır...

**Rafiq TƏHMƏZ**




# Daşlardan baxan tarix

*VII əsrdə Dədə Qorqud, IX əsrdə Babək, XVI- XVII əsrdə Koroğlu... Bir tərəfdə Oğuz boylarını söyləyən ulu bir ozan, bir tərəfdə Vətəni yad əllərə buraxmayan igid bir sərkərdə, digər tərəfdə isə qəhrəmanlıq simvolunu özündə birləşdirən, "Vətəni necə qorumaq lazımdır?" sualını Çənlibelə yad əlləri toxundurmayaraq göstərən Koroğlu...*

Tarix o zaman tarix olur ki, unudulmayaraq əbədiləşdirilir və gələcək nəsillərə ötürülür. Kitablar, jurnallar, qəzetlər, büstlər, məqbərələr və sərdabələr... Zamanın mancanağından keçərək ən yaxın tariximizdən tutmuş ulu tariximizə qədər ən incə detalları belə göz qabağına sərən ölməz sənət əsərləri.

XII əsrdə Memar Əcəmi, XIX-XX əsrlərdə Mirzə Cəlil... Bir tərəfdə qayalara, daşlara ölməz naxışlar vuran, digər tərəfdə isə daşlaşan fikirləri naxışlayan bir söz memarı... Çoxömürlük bir tarixin ölməz şəxsiyyətləri... Və muxtar respublikanı bəzəyən həmin şəxsiyyətlərin əbədiyaşar heykəlləri...

Həmin heykəllərin yanından keçərkən durub düşünürsən... Qəribədir... Görəsən həmin şəxsiyyətlər bir anlığa bizim yaşadığımız dövrdə canlansa idilər, nələri görərdilər? Bəlkə də, at belində olan Koroğlu və Babək qılınc əldə yağı düşmənə qarşı durar, Dədə Qorqud isə qopuz əlində indiki tariximizi dastana köçürərdi...

Sonra baxasan ki, Memar Əcəmi oturduğu yerdən Möminə xatın türbəsinə sevincdən yaşaran gözlərlə baxır... Ətrafında şəkil çəkdirən turistlər, gənclər, yaşlı sakinlər... Şərqdə qadının şərəfinə ucaldılan ilk abidəni seyr edirlər... Bəlkə də, yorğun memarın bu abidələri yaradarkən aldığı qızıllar onu belə xoşbəxt etməzdi... Əsl əməyinin qarşılıq gördüyünə və Yusif ibn Küseyr türbəsinin tənhalığına baxaraq fikirli halda oturduğu yerdən Naxçıvanın seyrinə davam edərdi...

Dahi Mirzə Cəlilə gəldikdə isə... Bəlkə də, yenə mətbuatlar yaradar "Molla Nəsrəddin"in timsalında, iradlarını dilə gətirər, müəyyən qədər cəhalətdən çıxan indiki dövrümüzü isə tərif edərdi... Bu saydığım şəxsiyyətlər Azərbaycanın böyük şəxsiyyətlərindən yalnız bir qismidir... Sanki onlar bu diyarın daşlaşan sənətkarları və ölməz tarixinin yaşayan simvollarıdır...

✍ **Rafiq TƏHMƏZ**

## Balaca gimnastın böyük uğurları



Balacalar üçün gimnastika həm əyləncəli, həm də faydalı bir məşğuliyyətdir. Bu idman növü ilə məşğul olmaq onların həm fiziki, həm də mental inkişafına böyük töhfə verir və balacaların sağlam böyüməsinə dəstək olur; uşaqların əzələlərini gücləndirir, elastiklik və çevikliklərini artırır. Bədən hərəkətlərini koordinasiya etmələrinə və tarazlıqlarını qorumalarına kömək olur. Uşaqlar gimnastikada yeni hərəkətləri öyrəndikcə özlərinə inamları artır. Bir hərəkəti öyrənmək və ya bir məqsədə çatmaq üçün çalışmaq, qətiyyət və iradə gücü qazandırır.

Məsuliyyət hissini və qaydalara riayətetmə bacarığını formalaşdıran bu idman növü artıq muxtar respublikada da sevilən və inkişaf edən idman növlərindən birinə çevrilib. "Şərq qapısı"nın budəfəki qonağı Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin 5-ci sinif şagirdi Mədinə Novruzludur. O artıq 6 ildir ki, gimnastika ilə məşğul olur və bu idman növündə bir sıra uğurlar əldə edib.

Mədinə deyir: "Gimnastikaya başlayanda, hər şey çox çətin görünürdü. Amma hər dəfə yeni hərəkət öyrənəndə sanki uçurdum! Ən sevdiyim şey tullanmaq və havada fırlanmaqdır – o anlarda çox xoşbəxt oluram. Bəzən yıxılanda ağlamaq istəyirəm, amma müəllimim həmişə deyir ki, heç nə olmaz, bir də cəhd et. Mən də təkrar-təkrar cəhd edirəm və nəhayət, bacaranda çox sevinirəm. Yarışlarda çıxış edəndə bir az qorxuram, amma sonra alqışları eşidəndə ürəyimdə bir cəsarət yaranır. Anam və atam tribunada gülümsəyəndə sanki daha güclü oluram. Gimnastika mənim üçün oyun kimidir – burada həm dostlar var, həm də əyləncəli məşqlər. Bir gün böyük gimnastlar kimi olmaq, öz hərəkətimi yaratmaq və "Bu mənimdir!" demək istəyirəm.

Hədəfim yalnız medallar qazanmaq deyil, həm də gələcəkdə peşəkar gimnast olmaqdır. Bu yolda mənə dəstək olan məşqçi-müəllimim Humay Qafarovaya və anama minnətdarlığımı bildirirəm.

Qeyd edək ki, Mədinə Bakı şəhərində keçirilən Azərbaycan Gimnastika Federasiyasının yenidən qurulmasının 20 illiyinə həsr olunmuş gimnastika hamı üçün növü üzrə festivalda, Gürcüstanda keçirilən İnternational Tournament in Gymnastics for all "Tbilisi Gymnaestrada"da, Bakı şəhərində keçirilən "1st Baku Gym for all İnternational Challenge" də I yerlərə, Quba şəhərində keçirilən bədii gimnastika üzrə turnirdə III yerə layiq görülüb.

Valideynləri ilə söhbətdə bildirdilər ki, onlar öz övladlarının bu idman növü ilə məşğul olmasına dəstəkçidirlər, çünki gimnastika Mədinədə əsl idmançıya xas olan keyfiyyətlər formalaşdırıb.

Onlar inanırlar ki, Mədinə gələcəkdə daha böyük uğurlar qazanacaqdır.

✍ **Aygün RÜSTƏMOVA**

## Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Hərracların Təşkili Mərkəzi" publik hüquqi şəxs tərəfindən 6 dekabr 2024-cü il tarixdə hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti və hərrac addımı (manatla) | Əmlakın 15 faiz aşağı qiyməti və hərrac addımı (manatla) | Behin həcmi 5 (beş) faiz (manatla) |
|---|---|---|---|---|---|
| 1. | 0.0452 ha torpaq sahəsində yerləşən, ümumi sahəsi 132.29 kv.m olan fərdi yaşayış evi | Naxçıvan şəhəri, 20 Yanvar küçəsi, ev 30 | 75000.0 / 750.0 | 63750.0 637.5 | 3187.5 |
| 2. | 0.0814 ha torpaq sahəsində yerləşən,1 mərtəbəli, 3 otaqlı, 77.88 kv.m yaşayış, 111.48 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Naxçıvan şəhəri, 10-cu küçə (H.Rəhmanov küçəsi), döngə 5, ev $9^{C}$ | 60000.0 / 600.0 | - | 3000.0 |
| 3. | 0.0212 ha torpaq sahəsində yerləşən, 1 mərtəbəli, 2 otaqlı, 20.18 kv.m yaşayış, 8.74 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Culfa şəhəri, M.Seyidov küçəsi, ev 18 | 30000.0 / 300.0 | - | 1500.0 |
| 4. | 0.085 ha torpaq sahəsində yerləşən,1 mərtəbəli, 4 otaqlı, 79.08 kv.m yaşayış, 41.8 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Culfa şəhəri, Heydər Əliyev prospekti, ev 51 | 35000.0 / 350.0 | - | 1750.0 |
| 5. | 71.49 kv.m ümumi, 45.58 kv.m yaşayış sahəsindən ibarət 3 otaqlı mənzil | Culfa şəhəri, M.Hüseynzadə küçəsi, ev 32, mənzil 51 | 40000.0 / 400.0 | - | 2000.0 |
| 6. | Ümumi sahəsi 14.56 kv.m olan qeyri-yaşayış sahəsi (mağaza) | Culfa şəhəri, Heydər Əliyev prospekti, ev 26 | 35000.0 / 350.0 | - | 1750.0 |
| 7. | 0.0375 ha torpaq sahəsində yerləşən, 901.4 kv.m ümumi, 479.2 kv.m əsas, 422.2 kv.m köməkçi sahədən ibarət əmlak kompleksi kimi müəssisə | Culfa rayonu, Yaycı kəndi | 190000.0 / 1900.0 | - | 9500.0 |

**Qeyd:**

- Hərraca qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifariş və digər zəruri sənədləri hərracın başlanmasına ən geci 3 bank günü qalanadək təqdim etmiş və ipoteka predmetinin ilkin satış qiymətinin 5 (beş) faizi həcmində beh keçirmiş hüquqi və fiziki şəxslər buraxılırlar.

- Sifarişlər Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Hərracların Təşkili Mərkəzi" publik hüquqi şəxs tərəfindən Naxçıvan şəhəri, 8-ci küçə,$1/5^{A}$ ünvanında 15 noyabr 2024-cü il tarixdən 3 dekabr 2024-cü il tarixədək saat $9^{00}$-dan $18^{00}$-dək qəbul olunacaqdır.

- Hərracda iştirak etmək istəyən şəxslər sifarişə aşağıdakı sənədləri əlavə edirlər:

1. Satıcı tərəfindən müəyyən edilmiş hesaba (AZ90AIIB380800H9448732527500) behin köçürülməsini təsdiq edən ödəmə sənədinin surəti;
2. Hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surətləri;
3. Fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti;
4. Hərraclarda iştirak etmək üçün sifariş hüquqi və fiziki şəxsin nümayəndəsi tərəfindən verildiyi təqdirdə o özünün sifarişçisi adından hərəkət etmək hüququnu təsdiq edən sənəd təqdim etməlidir.

- Hərrac günü sifarişçilərin hərrac zalına daxil olmaq üçün qeydiyyatı saat $10^{45}$-dək aparılır.

- Hərrac 6 dekabr 2024-cü il tarixdə saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin inzibati binasında keçiriləcəkdir.

Əlavə məlumatı Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Hərracların Təşkili Mərkəzi" publik hüquqi şəxsin @nmr_herracmerkezi "Instagram" hesabından, yaxud auksion.nmr.az elektron portalı və htm@nemlak.gov.az e-mail ünvanından ala bilərsiniz.

***Əlaqə telefonu: (036) 545-01-38; (060) 304-20-13.***

## *İtmişdir*

Babək rayonu, Güznüt kənd sakini Əliyev İman Şirin oğlunun adına olan JN-$552^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur şəhəri, Hüseyn Cavid 10 ünvanında Səfiyev Rza Məmmədqulu oğlunun adına olan 102013004772 reyestr nömrəli plan-ölçü və çıxarış itdiyindən etibarsız sayılır.

***

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Babək rayon idarəsinə məxsus JONYANQ markalı, 185FX419 dövlət nömrə nişanlı avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Musazadə Toğrul Xəqani oğlunun adına Naxçıvan şəhəri, Xətai məhəlləsi 1/2 ünvanında yerləşən torpaq sahəsinin 11.07.2024-cü il tarixli A-039893 nömrəli plan-ölçü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qorçulu kəndində yaşamış Fərzəliyev Əbülfəz Həsən oğlunun adına olan JN-121 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: SARA ƏZİMOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441
Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 340
Nömrəyə məsul: Nail Əsgərov, Rafiq Təhməzov, Günay Hacıyeva
Dizayner: Tacirə Vəliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.